YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
19 mart
2025-ci il,
çərşənbə
№ 050 (6878)
Qiymıəti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Ədalət budur, ədalətin təntənəsi budur!



Bax səh. 2

## Milli Məclisin iclasında...
## Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları ünvanlanıb

Bax səh. 3



## "Tələsik sülh" üçün müəmmalı zənglər...

Bax səh. 3

## Vətəndaş cəmiyyəti etiraz edir...

Bax səh. 4




## İcmadan çağırış...

Bax səh. 4

## Pan-Avropa enerji təchizatçısı

Martın 13-də Bakıda keçirilən XII Qlobal Bakı Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın regionda və qlobal miqyasda etibarlı enerji ölkəsi kimi durmadan nüfuzunun artdığını, xüsusən də qaz sahəsində yeni tərəfdaşların enerji ailəsinə daxil olduğunu xatırladıb. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşaraq ona uzanan ümidləri yaxın dost kimi müsbət həll edir. Bu gün Azərbaycan 12 ölkəyə qaz ixrac edir ki, 10-u Avropa dövlətidir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır.

**Azərbaycanın müəllifi olduğu qaz alyansına 12 ölkə qoşulub**

Ötən 19 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız 2020-ci ilin dekabr ayının son günündə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə faktiki olaraq Avropa...

Bax səh. 4

## Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

Azərbaycan və İsrail arasında iqtisadi əlaqələr son illərdə daha da inkişaf edərək yeni sahələrdə birgə layihələrin icrası üçün dərin zəmin yaratmaqdadır. Hər iki ölkənin biznes icması və iqtisadi strukturları arasında intensivləşən münasibətlər iqtisadi-ticari, investisiyalar üçün yeni imkanlar açır. Həmçinin davamlı xarakter alan Biznes-Forumlar sahibkarlar arasında təşəbbüskarlığı daha da artırır. Bu günlərdə İsraildə işgüzar səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun bu ölkənin iqtisadiyyat və sənaye naziri Nir Barkat ilə görüşündə investisiya əməkdaşlığının prioritetləri, sənaye zonaları çərçivəsində işbirliyi, işgüzar dairələr və biznes subyektləri arasında əlaqələrin gücləndirilməsi barədə müzakirələr aparılıb. Bu, tərəflər arasında yüksək səviyyəli əlaqələri daha da irəliyə aparmaq üçün yeni imkanların səfərbər olunması deməkdir.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli...

Bax səh. 5

## Tehran-Vaşinqton münasibətləri gərginləşir...

Son dövrlərdə İran ilə ABŞ arasında münasibətlər yenidən kəskin hal almaqdadır. İki ölkənin rəsmiləri arasındakı ritorikaya diqqət yetirdikdə, vəziyyətin ciddiliyi ortaya çıxır. Xüsusilə, İran ilə ABŞ arasında nüvə proqramı ilə bağlı gərginlik artmaqdadır. ABŞ Prezidenti Donald Trampın İranın nüvə silahı əldə etməsinə imkan verməyəcəyini bəyan etməsi vəziyyəti daha da kəskinləşdirib. Trampın bu mövqeyi fonunda, İranın Ali Rəhbəri Ayətullah Əli Xamenei ABŞ-ın danışıqlar təklifini "aldadıcı" adlandıraraq rədd edib. O, ABŞ-ın təkliflərinin səmimiyyətdən uzaq olduğunu və məqsədinin İrana qarşı təzyiqləri artırmaq olduğunu bildirib. Paralel olaraq İran Prezidenti Məsud Pezeşkian da Trampı sərt tənqid edərək, onun siyasətini qınayıb.

Qeyd edək ki, 2015-ci ildə Vyanada rəsmi adı ilə Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA - Joint Comprehensive Plan of Action) imzalandı. İran ilə BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin) və Almaniya (P5+1) arasında imzalanmış nüvə razılaşmasının...

Bax səh. 6

## Zelenski ərazi güzəştlərinə gedəcək?

Qərb KİV-ləri qeyd edirlər ki, Zelenski atəşkəsin təmin olunması üçün Rusiyaya güzəştə getmək niyyətindədir - onların iddialarına görə, rəsmi Kiyev daha çox ərazi itirməmək üçün ərazisinin bir qisminin müvəqqəti olaraq Rusiyanın nəzarəti altında qalmasına razı olacaq. Amma danışıqlar dövründə Kiyev ərazilərinin diplomatik yolla qaytarılmasına çalışacaq. Artıq ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uoltz da bu iddiaları təsdiqləyir - o, bildirib ki, Donbas və rusdilli əhalinin çoxluq təşkil etdiyi ərazilərin Moskvanın nəzarətinə keçməsinə razılıq verilə bilər. Hətta Ağ Evdən verilən qeyri-rəsmi məlumatlara görə, Ukraynada gələcək təhlükəsizlik zəmanətləri müqabilində Kiyevin ərazilərdən bir növ imtinası nəzərdə tutulur.

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Ukraynada müharibənin sona çatmasında yeganə yol rəsmi Kiyevin mövcud şərtlər daxilində müəyyən ərazilərini güzəştə...

Bax səh. 7

## Kipr məsələsi Cenevrədə...



Bax səh. 6

## Azadlığın "heykəli"...
### Və ya "Azadlıq heykəli" Fransaya yaraşacaqmı?



Bax səh. 5

# Ədalət budur, ədalətin təntənəsi budur!

## İlham Əliyev: Bizim Qələbəmiz tamdır və bu, həm dövlətimizin, Silahlı Qüvvələrimizin gücünü, həm də xalqımızın iradəsini göstərir

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

AZƏRTAC bildirir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama uyğun olaraq Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib.



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Ağdərədən paylaşım edib: “Ağdərə rayonu, Həsənriz kəndi. 18.03.2025. Uca Allah hər kəsə möhkəm cansağlığı, bol sevinc, sevgi və səadət, hər evə xoş ovqat, hər ocağa ruzi-bərəkət bəxş etsin! İlaxır çərşənbəniz mübarək!”.





## Biz tarixi ədaləti bərpa etməli idik...

Prezident İlham Əliyev və Mehriban Əliyeva Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısı sakinlərlə görüşüb söhbət edib.

Söhbət əsnasında Prezident İlham Əliyev deyib: “Biz tarixi ədaləti bərpa etməli idik, beynəlxalq hüququ bərpa etməli idik və öz haqqımızı bərpa etməli idik. Ona görə İkinci Vətən müharibəsindən keçən üç il ərzində biz gələcək planlarımız haqqında həm düşünürdük, həm çalışırdıq və əlbəttə ki, separatçıların hər hansı bir formada bu bölgədə qalmaları qeyri-mümkün idi. Biz burada məskunlaşdırılmış erməni əhalisinə də o vaxt təklif etmişdik ki, gəlin, Azərbaycan Bayrağı altında yaşayın, Azərbaycan vətəndaşlığını qəbul edin və burada sizə söz deyən olmayacaq. Bu gün də Xankəndi şəhərində erməni əhalisi var, onlara söz deyən yoxdur, əksinə, bizim sosial işçilərimiz onlara qayğı göstərirlər. Bax, bizim xalqımızın böyüklüyü bundan ibarətdir. Onlar isə bizi bu torpaqlardan, qədim torpaqlarımızdan didərgin salmışdılar, soyqırımı törətmişlər, Azərbaycan xalqına olmazın əzablar vermişdilər, xalqımızın böyüklüyü məhz bundadır. Biz haqlı olan tərəfik, həm işğal dövründə öz haqq səsimizi ucalda bilmişik və bütün dünyaya sübut edə bilmişik ki, bu, bizim tarixi və hüquqi torpağımızdır. Həm də İkinci Qarabağ müharibəsi dövründə baxmayaraq ki, Ermənistanın arxasında bir çox ölkələr, bir çox qüvvələr dayanmışdı, heç kim bizə əsaslı irad tuta bilməmişdi. Çünki biz beynəlxalq hüquq çərçivəsində öz torpağımızda müharibə aparırdıq. O cümlədən cəmi bir neçə saat çəkən antiterror əməliyyatı zamanı da bizə qarşı siyasi, ondan sonra digər hərəkətlər olsa da, onların heç bir nəticəsi olmadı. Beynəlxalq təşkilatlarda Ermənistanın havadarları Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, digər addımlar atmağa çalışdılar, buna nail ola bilmədilər. Haqq-ədalət bizim tərəfimizdədir. Həsənrizin azad olunmasının təməli məhz İkinci Qarabağ müharibəsi zamanı qoyulmuşdur. O vaxt artıq Qarabağın böyük hissəsi işğalçılardan azad edilmişdir. İkinci Qarabağ müharibəsindən sonra bir neçə əməliyyat nəticəsində mövqelərimizi daha da yaxşılaşdırdıq ki, ən qısa müddət ərzində az itki verməklə bütün qalan yerləri də nəzarətə götürək. Bu gün Həsənrizdə İlaxır çərşənbə günündə görüşürük. Sizi, Azərbaycan xalqını bayram münasibətilə təbrik edirəm. Ramazan bayramı da gəlir, Novruz bayramı da gəlir, bu gözəl bayram günündə, bayramlar ərəfəsində sizinlə görüşmək böyük məmnuniyyət doğurur”.

Sonra dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə birlikdə Novruz tonqalını alovlandırdılar.





## Relyef düşmənin xeyrinə işləyirdi...

Azərbaycan Prezidenti və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim ediblər.

Dövlətimizin başçısına və birinci xanıma burada görülən işlər barədə məlumat verilib.

Bildirildi ki, kəndə köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var.

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib. Suqovuşanda “istirahət kompleksi layihəsi” icra olunub. Ərazisi 6 hektar olan kompleksdəki 16 kottec və 2 mərtəbəli hotel binasında əsaslı təmir işləri aparılıb.

Dövlətimizin başçısı sakinlərlə görüşüb söhbət edib.

Şəhidlərin xatirəsinin qəlbimizdə əbədi yaşayacağını söyləyən Prezident İlham Əliyev bildirib ki, Vətən uğrunda döyüşmüş, qəhrəmanlıq göstərmiş hərbçilərimizi biz hər zaman qiymətləndiririk. Biz gənc nəslin qəhrəmanlığı, şücaəti hesabına torpaqlarımızı geri aldıq, işğalçıları torpaqlarımızdan qovduq: “Əlbəttə ki, bu, uzun bir proses idi. İlk növbədə, dövlət quruculuğu prosesi getməli idi və güclü dövlət quruldu ki, bu gün Azərbaycan dünyada sayı o qədər də çox olmayan müstəqil siyasət apara biləcək ölkədir. İqtisadi inkişaf təbii ki, olmalı idi. Çünki bizə heç kim kömək etmirdi. Bu gün də heç kim kömək etmir və buna ehtiyac da duymuruq. Ona görə öz gücümüzə əsaslanaraq iqtisadi imkanlar yaratmalı idik ki, maliyyə imkanlarımız olsun. Güclü Ordu yaratmalı idik, bunu da etdik. Ordumuzu təchiz etməli idik, onu da etdik. Ordumuzun döyüş qabiliyyətini artırmaq üçün müntəzəm işlər gedirdi. Əlbəttə ki, gənc nəslin yetişdirilməsi. Vətənpərvərlik ruhunda, dövlətə, xalqa bağlı olan gəncləri yetişdirdik”. İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbənin heç kim tərəfindən qazanılmadığını söyləyən dövlətimizin başçısı qeyd edib ki, bu, ya yarımçıq qalıb, ya natamam qalıb, ya da ki, hər hansı bir başqa formada müharibə öz mahiyyətini dəyişməyərək modifikasiya olunub, başqa formalara keçib: “Bizim Qələbəmiz isə tamdır və bu, həm dövlətimizin, Silahlı Qüvvələrimizin gücünü, həm də xalqımızın iradəsini göstərir. Siz də - bu bölgədə yaşamış insanlar, onların davamçıları yaxşı bilirsiniz ki, düşmən işğal dövründə elə güclü istehkamlar qurmuşdu ki, onları yarmaq həm qəhrəmanlıq, həm də peşəkarlıq tələb edirdi. Hətta bir çoxları əmin idi ki, biz heç vaxt o müdafiə xətlərini keçə bilməyəcəyik. Çünki relyef düşmənin xeyrinə işləyirdi, illər boyu qurduqları mühəndis istehkamları onların xeyrinə işləyirdi. Xarici qüvvələr, xarici ölkələr onların arxasında idi - ilk növbədə, guya bu məsələ ilə məşğul olmaq mandatını alan ATƏT-in Minsk qrupu. Onların əsas məqsədi bu münaqişəni əbədi etmək, torpaqlarımızı əbədi işğal altında saxlamaq, gözdən pərdə asmaq, bizim başımızı aldatmaq və sonsuz danışıqları aparmaqla bu reallığı bizə qəbul etdirmək idi. Onların hər üçünün məqsədi bu idi, burada bunların üçü də bir amal uğrunda birləşmişdi. Halbuki bu ölkələrin arasındakı indiki münasibətlər göstərir ki, bu, çox nadir bir hal idi. Yəni, nəyi göstərirdi, hər üçü Ermənistanın arxasında idi, hər üçü müxtəlif yollarla Ermənistanı dəstəkləyirdi. Biri silah verirdi, biri siyasi dəstək verirdi, biri iqtisadi imtiyaz verirdi. Bax, biz buna qarşı mübarizə aparmışıq, buna qarşı müharibə aparmışıq. İkinci Qarabağ müharibəsi başlayanda bilinmirdi kim özünü necə aparacaq. Mən böyük gücləri nəzərdə tuturam. Belə bir ağır siyasi mühitdə, belə bir ağır relyefdə, belə bir ağır istehkamlarla dolu olan ərazilərdə cəmi 44 gün ərzində düşməni böyrü üstə qoymaq xalqımızın gücünü göstərir. Ancaq o vaxt da biz bilirdik, əminəm ki, siz də bilirdiniz, bütün xalq bilirdi ki, bu, necə deyərlər, işimizin hələ tam başa çatması deyil. Çünki müəyyən səbəblərə görə separatçılar hələ ki, bizim torpaqlarımızda öz yuvalarını saxlamışdılar, sülhməramlı qüvvələr bölgəmizə gətirilmişdi və bu da separatçılara, necə deyərlər, əlavə ürək-dirək verirdi. Onlar da hesab edirdilər ki, belə olan vəziyyətdə o separatçılıq davam edəcək və digər müxtəlif hadisələr baş vermişdir. Ancaq onlar bir şeyi hesablaya bilməmişdilər, o da Azərbaycan xalqının və dövlətinin iradəsi, qətiyyəti, cəsarəti, öz gücünə əminliyi idi. Onlar bunu hesablaya bilməmişdilər. İlyarım bundan əvvəl birgünlük antiterror əməliyyatı separatçılığın kökünü kəsdi, onunla da məsələ bitdi, onların kitabı bağlandı. Bu gün də biz bu gözəl bayramı burada qeyd edirik. Mən sizi təbrik edirəm. Burada xoşbəxt yaşayın. Siz buna layiqsiniz. Uzun illər əzab-əziyyət içərisində yaşamışınız, bundan sonra o əzab-əziyyət qaldı tarixdə”

Açarların təqdim edilməsi mərasimindən sonra qisasımızı döyüş meydanında aldığımızı deyən dövlətimizin başçısı vurğulayıb ki, onlardan fərqli olaraq mülki əhaliyə qarşı heç bir nalayiq hərəkət etməmişdik, gücümüzü ancaq Ermənistan ordusunu məhv etmək üçün səfərbər etmişdik: “Onlar isə əliyalın insanlara qarşı, qadına, uşağa, qocalara qarşı nə qədər çirkin əməllər etmişdilər, hərbi cinayətlər törətmişdilər. Vaxtilə bizi hədələyənlər, “biz Bakıya tanklarla gəlib Bakıda çay içəcəyik” deyənlər indi məhkəmə qarşısında cavab verirlər. Mən isə demişəm tanklar da Bakıdadır, Qənimətlər Parkında, çayı da içirlər lazım olan yerdə və xalq qarşısında, qanun qarşısında cavab verəcəklər.

Ədalət budur, ədalətin təntənəsi budur və mən bunu dəfələrlə demişdim, işğal dövründə keçmiş köçkünlərlə mənim onlarla, bəlkə də yüzlərlə görüşlərim olub. Həm yeni qəsəbələrin açılışında, həm müxtəlif tədbirlərdə. Biz heç vaxt ümidimizi itirməmişdik, ancaq ildən-ilə görürdüm məndə də, bütün insanlarda da, necə deyərlər, ədalətə inam azalırdı. Çünki ədalət, necə deyərlər, mövqeyimizi gücləndirməli idi. Amma ədalət o vaxt zəfər çalır ki, iradən də var, gücün də var və haqqın da çatır. Bütün bu amillər bizdə olduğu üçün biz bu tarixi Zəfəri çaldıq. Bu Zəfərin, mən yenə də deyirəm, son onilliklər ərzində tayı-bərabəri olmayıb, bundan sonra da olmayacaq. Baxın, bu gün müxtəlif yerlərdə müharibələr gedir. O müharibələr həm uzun müddət ərzində gedir və həm də, necə deyərlər, real nəticə ilə nəticələnmir. Bizim qələbəmiz tam idi, mütləq idi, birmənalı idi və vaxtilə “Qarabağ Ermənistandır” deyən adam bu gün deyir: “Qarabağ Azərbaycandır!”“.

Sonra xatirə şəkilləri çəkdirildi.





## Suqovuşan kəndindəki məscidin açılışında...

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılışında iştirak ediblər.

Eyni vaxtda 100-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti də yaşıllaşdırılıb. İbadət ocağının daxilində xüsusi bəzək elementlərindən istifadə olunub.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ilin martında bu ibadət ocağının təməlqoyma mərasimində iştirak ediblər.

# Milli Məclisin iclasında...
# Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları ünvanlanıb




## İclasda 14 məsələ müzakirə olunaraq qəbul edilib

Martın 18-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova gündəliyə 14 məsələnin daxil edildiyini və birinci məsələnin "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsi olduğunu deyib. Spiker bildirib ki, beynəlxalq sənədlə bağlı olduğuna görə layihə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilməlidir.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov bu qanun layihəsini təqdim edib. O, diqqətə çatdırıb ki, "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi" 6 noyabr 2024-cü il tarixində Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən TDT-nin 11-ci Zirvə Görüşündə imzalanıb. Qeyd olunub ki, Sazişin məqsədi üzv ölkələr arasında rəqəmsal iqtisadiyyatı inkişaf etdirmək, elektron ticarət və rəqəmsal xidmətləri asanlaşdırmaq, müasir texnologiyaların tətbiqini genişləndirmək və biznes mühiti üçün daha əlverişli şərait yaratmaqdır. Saziş çərçivəsində tərəflər elektron ticarətin inkişafı, gömrük və logistika, maliyyə texnologiyaları və rəqəmsal ödənişlər, kiçik və orta biznesin dəstəklənməsi, istehlakçı hüquqlarının qorunması, kibertəhlükəsizlik və məlumat mübadiləsi, elektron imzalar və hüquqi uyğunlaşma istiqamətlərində əməkdaşlıq etməyi öhdələrinə götürürlər. Sazişin icrasına nəzarət məqsədilə Birgə Komitənin təsis edilməsi nəzərdə tutulur. Bu komitə Sazişin müddəalarının yerinə yetirilməsini izləyəcək, tərəflər arasında koordinasiyanı təmin edəcək və əməkdaşlıq sahəsində təkliflər irəli sürəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədin iqtisadi baxımdan və beynəlxalq münasibətlər nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb etdiyini deyib, rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini bildirib.

Müzakirələrdən sonra qanun layihəsi qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti 5 məsələnin uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıdığını, həmin sənədlərin müvafiq qanunvericiliyə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib. Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Diqqətə çatdırılıb ki, layihə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 9 dekabr 2022-ci il tarixli və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 23 dekabr 2022-ci il tarixli qanunlara uyğun olaraq hazırlanıb. Belə ki, ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazilərin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq olunmuş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV-dən və gömrük rüsumlarından azad edilib. Azadolmalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən verilmiş təsdiqedici sənəd əsasında tətbiq edilir. Həmin təsdiqedici sənədin "sahibkarlıq fəaliyyətinə verilən icazə" xarakterli olması nəzərə alınmaqla, "Lisenziyalar və icazələr haqqında" Qanunun 3 nömrəli əlavəsi - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 75-ci maddəsi yeni redaksiyada verilir və həmin təsdiqedici sənəd icazələrin siyahısına daxil edilir.

Deputat Razi Nurullayev bəzi qeydlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Ətraf mühitin mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi layihəsini təqdim edib. Bildirilib ki, layihə terminlərin eyniliyinin təmin olunması və uyğunlaşdırılması məqsədilə hazırlanıb. Qanunun 52-ci və 57-ci maddələrində "dövlət ekoloji ekspertizasının obyektləri barədə ekspert rəyi" ifadəsinin "ekoloji ekspertiza rəyi" ifadəsi ilə əvəz olunması təklif olunur. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Nəzərə çatdırılıb ki, adı çəkilən qanunda əlilliyi olan şəxslərin səhhətinə və ailə başçısını itirmiş ailələrə vurulmuş ziyana görə zərərçəkmiş şəxslərə onların əlillik dərəcəsindən asılı olaraq birdəfəlik kompensasiyanın verilməsi, habelə 1986-1990-cı illərdə Çernobıldа qəzanın nəticələrinin ləğv edilməsi iştirakçılarına səhhətinə vurulmuş ziyana görə hər il üzrə kompensasiya verilməsi ilə bağlı müddəalar nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Layihədə 33 qanuna uyğunlaşdırma xarakterli dəyişiklik edilməsinin nəzərdə tutulduğunu deyən komitə sədri qeyd edib ki, Rəqabət Məcəlləsinin qəbul olunması ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi, habelə ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarının müəyyən edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi, məhsul və xidmətlərin keyfiyyətinin artırılması baxımından böyük əhəmiyyətə malikdir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) layihəyə dair məlumat verib. O, qeyd edib ki, layihə çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması, ünvanlılığının, eləcə də ehtiyacı olan şəxslərin bu xidmətlərə əlçatanlığının təmin edilməsi məqsədilə hazırlanıb.

Bildirilib ki, dəyişikliklərdə sosial xidmətə götürülən şəxslərin vəzifələrinə sosial işçinin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq tələbi əlavə olunur. Bununla yanaşı, sosial xidmətin göstərilməsi barədə müraciətə baxılması, qiymətləndirilməsi və qərar qəbul edilməsi ilə bağlı mövcud prosedurun konkretləşdirilməsi nəzərdə tutulur. Digər dəyişiklikdə "eyni yaşayış məntəqəsində yaşamayan" ifadəsinin "Bakı şəhəri üzrə eyni inzibati ərazi vahidində, digər şəhər və rayonlar üzrə isə eyni inzibati ərazi dairəsində" ifadəsi ilə əvəz edilməsi təklif olunur. Daha bir dəyişiklik nəticəsində çətin həyat şəraitində olan bütün şəxslər yarımstasionar (günərzi) sosial xidmətlərlə əhatə olunacaq. Qanuna, habelə şəxslərin sosial-mədəni həyata uyğunlaşmasına, asudə vaxtın səmərəli təşkilinə yönəlmiş yeni - sosial-mədəni xidmət növü əlavə edilir. Həmçinin sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi qaydasını müəyyən etmək məqsədilə dəyişiklik də təklif olunur.

Müzakirələrdə komitə sədri Hicran Hüseynova, deputat Nigar Məmmədova çıxış edərək məsələ barədə öz fikirlərini bölüşüblər. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Deputatlar iclasın gündəliyində olan digər qanun layihələri də qəbul ediblər.

Sonda Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, bu gün ilaxır çərşənbədir, iki gün sonra da xalqımız Novruz bayramını, ayın sonunda isə Ramazan bayramını qeyd edəcək. O, deyib ki, xalqımızın milli-mənəvi dəyərləri arasında müstəsna yeri olan Novruz birliyi, bərəkəti və bolluğu təcəssüm etdirir. Ramazan bayramı isə insanları həmrəyliyə və əmin-amanlığa dəvət edir.

Spiker təklif edib ki, bu gözəl bayramlar münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, onlara xalqımızın və dövlətimizin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində yeni böyük uğurlar arzulayaq!

Təklif iclas iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Sahibə Qafarova qarşıdan gələn bayramlar münasibəti ilə deputatları, həmçinin iclası izləyən media nümayəndələrini təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

***Nardar BAYRAMLI***

# "Tələsik sülh" üçün müəmmalı zənglər...
## Sazişin imzalanması üçün tələblər qəbul edilsə də, bəzi detallar açıq qalır

2022-ci ildən Azərbaycanın təşəbbüsü ilə başlanan sülh prosesi özünün mühüm mərhələsini yaşayır. İllərdir ki, qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistan axır ki, Azərbaycanın haqlı tələblərini qəbul edib. Xarici işlər naziri Ceyhun Bayramov da jurnalistlərə açıqlamasında bildirmişdi ki, sülh sazişinin mətni ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Açıq qalan iki maddə üzrə Ermənistan Azərbaycan tərəfinin təkliflərini qəbul edib.

İrəvan da razılaşdırma prosesinin yekunlaşmasını təsdiqləyib. Maraqlıdır ki, dünənə qədər danışıqları uzatmaq, manipulyasiyaya əl atmaq üçün fürsət axtaran Ermənistan indi özünü sülhpərvər donda təqdim etmək üçün əldən ayaqdan gedir. Hətta müəyyən ştrixlərlə Ermənistanın məsələni beynəlxalq səviyyədə "diqqət mərkəzinə" salmaq üçün səyləri müşahidə olunur. Vəziyyətlə bağlı aydınlaşdırmalar verilir, məlumatlandırmalar aparılır...

## Paşinyanın yeni "oyunu" - sülhpərvərlik...

Məsələn, müqavilə ilə bağlı detalların razılaşdırılmasının ardından Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya Prezidenti, İranın dövlət başçısı və Fransanın prezidenti ilə telefonla danışıb. Paşinyan danışdığı dövlət liderlərinə Bakı ilə İrəvan arasında saziş bağlanması ilə bağlı danışıqların başa çatdığını bildirib.

Ortada bəzi məqamlar var ki, bunlar açıq suallar yaradır. Məsələn, danışıqlar prosesi iki dövlətin arasında gedib və bununla bağlı hansısa bir xarici ölkə rəhbərinə məruzə etmək hansı ehtiyacdan yaranıb?

Sülhlə bağlı sənədin müddəalarının razılaşmasının Ermənistan tərəfindən bu qədər "həvəslə" yayılmasının arxasında isə yenə də fərqli mahiyyət dayanır - təəssüfləndirici haldır ki, burada da manipulyasiya boy göstərir. Ermənistan bu "məlumatlandırması" ilə "özünəməxsus görüntü yaratmağa çalışır. Yəni Ermənistan artıq danışıqlar prosesinin bitdiyini elan edir - sülhün imzalanması üçün öz təbirincə hər hansı bir manеənin qalmadığının təbliğatını aparır. Amma, əslində, vəziyyət tam fərqli bir mənzərəyə əsaslanır. Ermənistanın sülh sənədi ilə bağlı Azərbaycanın təkliflərini qəbul edərək "prosesin bitdiyini" yayması sadəcə olaraq, özünü sığortalamağa və prosesi yenə də yarımçıq vəziyyətdə saxlamağa yönəlik addımdır. Əslində, Paşinyan bu kimi "məlumatlandırmalar" vasitəsilə prosesi indiki vəziyyətdə "bloklamağa" cəhd göstərir.

## Konstitusiya dəyişməli, ATƏT ləğv edilməlidir...

Vurğulandığı kimi, sülh üçün əsas amillər hələ də açıq qalmaqdadır. Sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq iki şərtdən biri və birincisi Ermənistanın manipulyasiyalardan əl çəkərək qeyri-konstruktiv davranışlarına son qoymasıdır. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə məqsədli şəkildə löngimələri prosesin effektivliyini azaldan amil kimi çıxış edir. İlk növbədə Ermənistan özünün əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülh üçün ilkin və əsaslı şərt məhz budur - bunun üçün isə Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Problem isə ondan qaynaqlanır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qərarından bəhs olunur. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Beləliklə, sülh üçün ilk addım Ermənistanın bu əsassız iddiadan geri çəkilməsi və özünün əsas sənədində bu səhvi aradan qaldırmağa yönəldilməlidir.

Digər məqam isə vaxtilə "münaqişə"nin tənzimlənməsi üçün yaradılmış və artıq heç bir işə yaramayan ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı məsələnin İrəvan tərəfindən dəstəklənməsidir. Artıq "Qarabağ münaqişəsi" adlı bir mövhum mövcud olmadığı üçün, belə bir "vasitəçi mexanizmə" də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər isə qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll olunan bir məsələdir - nəticə etibarı ilə ATƏT-in Minsk Qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur. ATƏT-in Minsk Qrupundan imtina edilməməsi də təhlükəli məqamları özündə əks etdirir. Qarşıdakı dövrdə Ermənistan hakimiyyətinin məhz ATƏT-in Minsk Qrupuna "söykənərək" özünün əsassız idialarını yenidən işə salmayacağının təminatını vermək mümkün deyil...



Bunun səbəbi isə aydındır - Ceyhun Bayramov da sülh sənədi ilə bağlı razılaşma barədə danışarkən bildirmişdi ki, növbəti addım olaraq Azərbaycanın gözləntisi Ermənistanın öz konstitusiyasında dəyişiklik etməsidir: Əlavə olaraq Minsk qrupu və onun qalıqlarının da ləğv olunması həyata keçirilməlidir.

Bəli, Ermənistanın da iddia etdiyi kimi artıq prosesi yekunlaşmış saymaq olmaz.

## Sülh üçün növbəti mərhələ...

Prosesin sadəcə, müəyyən bir mərhələsi arxada qalıb. Sülhün ərsəyə gəlməsi üçün onun zəmini yaradılmalıdır. Bu sülhün əbədiliyinin təminatı üçün Ermənistan bir sıra addımlar atmalıdır. Əks halda, indiki razılaşmalar elə də fundamental əhəmiyyət daşımayacaq. Nə qədər ki, Ermənistan Konstitusiyasında dəyişiklik etməyib, ATƏT-in Minsk Qrupunun ləğvi üçün addımlar atmayıb və Zəngəzur dəhlizinin açılması üçün müsbət mövqe sərgiləməyib, sülhə nail olunması görüntüsü yalnız görüntü xarakterli olacaq...

Nəhayət, sülhün zəmininin formalaşdırılmasına rəvac verəcək mühüm bir detal - Zəngəzur dəhlizinin açılması təmin edilməlidir. Sülh prosesi çərçivəsində aktiv müzakirə edilən məsələlərdən biri də məhz Zəngəzur dəhlizidir.

Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndi və 2021-ci il yanvarın 11-də Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradıb. Qeyd edək ki, müzakirə edilən bu dəhliz müasir "Böyük İpək yolu"dur. Başqa sözlə, "Şərq-Qərb" ticarət yolunun ən mühüm seqmentlərindən biri kimi meydana çıxan Zəngəzur dəhlizi adıçəkilən tranzit xətt üzrə mühüm üstünlüklər formalaşdırır.

## Zəngəzur dəhlizi açılmalıdır...

Ən əsası isə bu dəhliz Azərbaycandan Azərbaycana, yəni Naxçıvana ən qısa və optimal yol sayılır. Prezident İlham Əliyev yerli televiziyalara müsahibəsində bildirmişdi ki, biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik?: "Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır".

Bəli, Ermənistan iddia etdiyi kimi sülhpərvərdirsə, irəli sürülən bu məsələlərin həllini tezləşdirməlidir. Əks halda, Paşinyanın xarici dövlət başçılarına zənglərinin də manipulyasiya olması bütün parametrlər üzrə bir daha təsdiqlənəcək...

***P.İSMAYILOV***

# Pan-Avropa enerji təchizatçısı

## Cənub Qaz Dəhlizinin genişləndirilməsi Azərbaycandan qaz alan dövlətlərin sırasını daha da genişləndirəcək

Martın 13-də Bakıda keçirilən XII Qlobal Bakı Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın regionda və qlobal miqyasda etibarlı enerji ölkəsi kimi durmadan nüfuzunun artdığını, xüsusən də qaz sahəsində yeni tərəfdaşların enerji ailəsinə daxil olduğunu xatırladıb. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşaraq ona uzanan ümidləri yaxın dost kimi müsbət həll edir. Bu gün Azərbaycan 12 ölkəyə qaz ixrac edir ki, 10-u Avropa dövlətidir. Bu yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır.

**Azərbaycanın müəllifi olduğu qaz alyansına 12 ölkə qoşulub**

Ötən 19 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız 2020-ci ilin dekabr ayının son günündə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə faktiki olaraq Avropa İttifaqının qaz bazarına daxil olub. 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kubmetr, 2022-ci ildə 11 milyard kubmetrdən çox qaz ixrac edib. 2023-cü ildə isə yanacaq nəqli 12 milyard k.metr, 2024-cü ildə respublikamız xarici ölkələrə 25,2 milyard kubmetr həcmində qaz ixrac edib ki, onun 12,9 milyard kubmetri Avropa dövlətlərinin payına düşür.

Hazırda ölkəmiz Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiyaya qaz nəqlini təmin etməkdədir.

## TAP kəmərinin ötürücülük gücü genişləndirilir




Mövcud proqnozlara görə, 2025-ci ildə ölkəmzin Avropa regionuna ixracı 14 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək. "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"na əsasən, 2027-ci illərdə ölkəmizin Avropaya qaz nəqli 20 milyard. kubmetrədək artırılacaq. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artırmış olacaq və qaz təchizatının coğrafiyasının qarşıdakı illərdə daha da genişlənməsinə imkan verəcək. Növbəti illərdə Moldova, Avstriya, Moldovanın da qaz əldə etməsi planlaşdırılır.

Azərbaycanın qaz istehsalı həcmlərinin artması və yanacağa olan tələbatın yüksəlməsi Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsini labüd edir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır.

## "Şahdəniz"dən sonra "Abşeron" dövrü başlayır

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kub.metr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2024-cü ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan "Fitch Ratings" bir müddət əvvəl açıqladığı hesabatda "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib.

## Digər türk dövlətlərinin TAP-a qoşulması reallaşır

Avropa İttifaqı Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla Xəzər mənbəyindən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi maşrutu mövcuddur və işləkdir. Qalır türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq. Bunun üçün hüquqi mexanizm və beynəlxaql sazişlər olmalıdır. Artıq bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır və bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb. Ötən ay Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum-TANAP- vasitəsilə nəql olunacaq, gələcəkdə isə TAP-la Avropaya ixracı nəzədə tutulur.

*ELBRUS CƏFƏRLİ*

# Vətəndaş cəmiyyəti etiraz edir...

## Avropa Parlamenti beynəlxalq güclərin və erməni lobbisinin diktəsi ilə işləyir

Avropa Parlamentinin martın 13-də Azərbaycana qarşı qəbul etdiyi növbəti qərəzli qətnamə cəmiyyətimizdə ciddi etirazla qarşılanır. Bu dəfə qurum Bakıda məhkəməsi davam edən erməni canilərin müdafiəsinə qalxıb. "Erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri" adlı "sənəd" müharibə cinayətləri törətmiş, Xocalı cəlladları olan canilərin azad olunmasına "çağırış" edir. Nə qədər absurd olsa da, Avropa Parlamenti onların həbsini "qanunsuz" sayır. Qətnamə, həmçinin bu məhkəməni həyata keçirən hakimlər Zeynal Ağayev, Camal Ramazanov və Anar Rzayevə qarşı məqsədyönlü sanksiyaların tətbiq edilməsinə "çağırır".

**Çingiz Qənizadə: Onlar sifariş yerinə yetirirlər**

Yeri gəlmişkən, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin qəbul etdiyi sözügedən qətnamə ilə əlaqədar təşkilata etiraz məktubu ünvanlayıb. Məktubda "Erməni girovların qanunsuz tutulması və qondarma məhkəmə prosesləri" adlı qətnamənin əsassız, qeyri-obyektiv və qərəzli olduğu bildirilib. Bununla yanaşı ölkəmizin vətəndaş cəmiyyətinin təmsilçiləri də sözügedən təşkilatın qəbul etdiyi qətnaməni pisləyiblər. Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Avropa Parlamenti ölkəmizə qarşı dəfələrlə qeyri-obyektiv sənəd qəbul edib. Halbuki, 1990-cı illərin əvvəlindən torpaqlarımız Ermənistan tərəfindən işğal olunmuşdu və məntiqlə təşkilat işğalçı ölkəyə yönəlik qətnamələr qəbul etməli idi. Lakin Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi illərdə də Avropa Parlamenti təcavüzkarın vəkili və ruporu qismində özünü təsdiqləyib. O dövrdə Ermənistanın işğalçılıq siyasətini pərdələmək üçün "insan hüquqları" bəhanəsi ilə Azərbaycana qarşı sənədlər qəbul edib.

Həmsöhbətimiz hesab edir ki, hazırkı qətnamənin qəbul olunması da avropalı parlamentarilərin erməni lobbisinin əlində alət olduğunu təsdiqləyir. Qurumdakı parlamentarilər onların sifarişlərini yerinə yetirir. Onun sözlərinə görə, elə qətnamə qəbul olunan günü lobbiçilik ətrafında korrupsiya faktının üzə çıxması deyilənləri təsdiqləyir. Ç.Qənizadənin fikrincə, avropalı deputatların Bakıda həbsdə olan erməni canilərə ürəyi yanmır. Hətta Ermənistan parlamenti onlar barəsində bəyanat qəbul etməyib. "Məntiqlə erməni deputatlar bu tipli sənədlər qəbul etsəydilər başa düşmək olar ki, onlar ermənidirlər. Amma Ermənistan parlamentinin mühakimə edilən erməni canilərlə bağlı heç hansı qətnaməsi olmadığı halda, Avropa Parlamentinin bu məsələdə canfəşanlıq etməsi suallar doğurur",-deyə o söyləyib.

Hüquq müdafiəçisi qeyd edib ki, avropalı parlamentarilərin erməni diasporu və lobbisi tərəfindən pulla satın alınması şübhə doğurmur. Onun sözlərinə görə, müəyyən dairələr bu yolla nəyəsə nail olacaqlarına, Azərbaycana təzyiq edə biləcəklərinə ümid edirlər. Ancaq onlar çox yanılırlar. "Çünki Azərbaycana təzyiq etmək mənasızdır. Çünki dövlətimiz təzyiqlərə heç zaman boyun əymir. Erməni canilərin keçirilən məhkəmə prosesi həm dünyanın gözü qarşındadır, həm də tarixi ədalətdir. Əminəm ki, avropalı deputatlar öz ölkələrində belə şəxslər olsaydı, onların edam edilməsi təşəbbüsünü qaldırardılar. Azərbaycan isə onların hüquqlarını təmin edib, müdafiəçi, tərcüməçi ayrılıb, ifadə verirlər, saxlanma şəraitindən də narazılıq etməyiblər. Ona görə də Avropa Parlamentinin qətnaməsi heç bir təsir qüvvəsi olmayan bir kağızdır. Həmin qətnamə kağız parçası olmaqla yanaşı çirkin kampaniyadır", -deyə Ç.Qənizadə vurğulayıb.



**Kənan Qubadzadə: Azərbaycana təzyiq etmək mümkün deyil**

"Gənclər Mərkəzi" İctimai Birliyinin sədri Kənan Qubadzadə isə bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Avropa Parlamenti ölkəmizə qarşı düşmən mövqeyi sərgiləyir. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsindən sonra Avropa Parlamentində ölkəmizə qarşı qəbul edən qətnamələrin, belə demək mümkünsə, sayı-hesabı yoxdur: "Bakıda erməni canilərin məhkəməsi davam edir və məhkəmə prosesi şəffaf keçirilir. Nə qədər absurd olsa da, həm Ermənistan, həm də xaricdəki erməni lobbisi bu məsələ ilə bağlı dezinformasiya yayır, konkret cinayətlərdə ittiham olunan şəxslərin mühakiməndən yayındırılması üçün fərqli yollara əl atırlar. Həmin dairələrin məqsədi Azərbaycana beynəlxalq təzyiq göstərmək və bəlkə bu təzyiq yolu ilə onların azad edilməsinə çalışmaqdır. Avropa Parlamenti də erməni lobbisinin əlində alət olduğu üçün bu tipli saxta, qərəzli qətnamə qəbul edib".

QHT rəhbəri qeyd edib ki, bu gün Avropa dəyərlərinin aşınmaya məruz qalması təəssüf doğurur. Avropa təsisatlarının yarandıqları zaman xüsusilə beynəlxalq hüquq, insan haqları və demokratiya kimi prinsiplərin əsas götürüldüyünü xatırladan K.Qubadzadənin sözlərinə görə, artıq həmin təşkilatların fəaliyyətində bu prinsiplərə riayət olunmur: "Bu təşkilatlar hazırda beynəlxalq güclərin və lobbilərin diqtəsi ilə işləyir. Yəni, fundamental dəyərlər onlar üçün arxa plana keçirilib. Avropa Parlamentinin qəbul etdiyi qətnamələr də bunun sübutudur. Lakin bu addımlarla Azərbaycana təzyiq etmək mümkün deyil. Çünki dövlətimizin addımları beynəlxalq hüquqa və qanunun aliliyinə əsaslanır. Məhkəməsi keçirilən erməni canilərin cinayətləri ilə bağlı təkzibedilməz faktlar mövcuddur. Avropa Parlamenti isə erməni lobbisinin əlində alət olan qurumların qəbul etdiyi qətnamələrin heç bir hüquqi qüvvəsi yoxdur. Ciddi beynəlxalq təşkilatlar isə belə məsələlərə obyektiv olmağa çalışırlar. BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun Ruben Vardanyan işi ilə bağlı Ermənistan tərəfinin iddialarını rədd etməsi də buna nümunədir".

*Nardar BAYRAMLI*

# İcmadan çağırış...

## Ermənistan Qərbi azərbaycanlıların öz evlərinə təhlükəsiz şəkildə qayıtmalarına şərait yaratmalıdır




Bir neçə gün öncə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla sülh müqaviləsi üzrə bütün bəndlərin razılaşdırıldığını və layihənin mətni üzrə danışıqların başa çatdığını bəyan edib. Erməni tərəfi də bu faktı təsdiqləyib, hətta müqavilənin imzalanmasının vaxtını və yerini müəyyən etmək üçün danışıqlara hazır olduğunu iddia edib. Bundan dərhal sonra Ermənistanın baş naziri Nikol Paşinyanın bir sıra ölkələrin liderlərinə zəng edərək sülh müqaviləsi üzrə danışıqların başa çatması və Ermənistanın bu sənədi imzalamağa "hazır olması" barədə məlumatlar verib. Həm də bu telefon danışıqları şərti dövlət sərhədində erməni hərbi birləşmələrinin təxribatları ilə müşayiət olunur. Görünən odur ki, erməni tərəfi sülhə maraqlı deyil, yaxud tələsik sülh sazişi imzalamaqla başqa məqsədlər güdür.

**1987-ci ildə Qafanda başlayan...**

Çünki sülh müqaviləsinin mətnin razılaşdırılması hələ onun imzalanması demək deyil. Rəsmi İrəvan sənədi imzalamaq üçün məlum şərtləri yerinə yetirməlidir. Belə ki, Ermənistan konstitusiyasında və digər normativ hüquqi aktlarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dair iddialar aradan qaldırılmalıdır. Qərbi Azərbaycan İcması da hesab edir ki, Ermənistanın sülh sazişi layihəsində açıq qalan iki bəndi qəbul etməsi kifayət deyil. Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı burada nəzərə alınmalıdır.

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilir: "Ermənistanın 1987-ci ildə Qafan rayonunda azərbaycanlılara qarşı törətdiyi zorakılıq ilə başlayaraq 30 ildən artıq davam etmiş Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycana külli miqdarda ziyan vurulub və azərbaycanlılar böyük müsibətlərə düçar olublar. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə münaqişə arxada qalıb, bölgədə davamlı sülhün və ədalətin bərqərar olması üçün imkan yaranıb. Məhz Azərbaycan Respublikasının təşəbbüsü ilə iki dövlət arasında bu məsələlər üzrə siyasi proses başlayıb. Bu günlərdə xəbər verildiyi kimi, münasibətlərin qaydaya salınması üzrə çoxsaylı mövzuların bir qismini əhatə edən saziş layihəsi üzrə danışıqlarda Ermənistan Azərbaycanın açıq qalan iki maddə üzrə təkliflərini qəbul edib. Lakin bu, kifayət deyil. Ermənistan tərəfi qalıcı sülhün və ədalətin bərqərar olunması üçün qalan digər məsələlər üzrə də öz üzərinə düşəni etməlidir". İcma bəyan edib ki, bunların sırasına Qərbi azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmaq, maneəsiz tranzit öhdəliyini yerinə yetirmək, Azərbaycana qarşı ərazi iddialarını öz konstitusiyasından və qanunlarından çıxarmaq, ATƏT-in Minsk qrupunun ləğv olunması üçün müraciət göndərmək, Azərbaycan ərazilərinin işğalına, ona külli miqdarda ziyan vurmasına və azərbaycanlılara qarşı zorakılıq törətməsinə görə məsuliyyətini etiraf etmək, təzminat ödəmək, öz ərazisində qondarma rejimin bütün "təsisatları"nı ləğv etmək, hərbi canilərin qəhrəmanlaşdırılmasına son qoymaq, silahlanma proqramını dayandırmaq və aldığı silahları geri qaytarmaq daxildir.

**Beynəlxalq hüquq tələb edir**

Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti öz üzərinə düşəni yerinə yetirmək üçün Ermənistana təzyiq etməyə çağırıb. Xüsusi qeyd edilməlidir ki, Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtması onların fundamental haqqıdır və bu da beynəlxalq hüquqla təsbit olunub. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb. BMT-nin insan hüquqları və beynəlxalq hüquq sahəsində qəbul etdiyi mühüm prinsiplərdən biri olan qayıdış hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndində qeyd olunur. Bu bənddə açıq mətnlə deyilir ki, "Hər kəsin öz ölkəsi daxilində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ var" və "hər kəsin öz ölkəsinə qayıtmaq hüququ var".

Ermənistan azərbaycanlı icmasının bərabər hüquqlarını təmin etməli, onların ana dillərində təhsil almasına, qanunvericilik, icra və məhkəmə orqanlarında Azərbaycan dilindən istifadəsinə imkan yaratmalı və azərbaycanlıların hüquqlarının qorunmasını tam təmin etməlidir. Bütün bunların reallaşması üçün müvafiq beynəlxalq qurumların hüquqi məsləhət, monitorinq və nəzarət mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlanmalıdır. İstənilən halda, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna sahibdirlər.

*Nardar BAYRAMLI*

# Aqrar sahədə yeni layihələr

## Azərbaycan İƏT ölkələri ilə imkanları nəzərdən keçirir



Bakıda keçirilən XII Qlobal Bakı Forumu çərçivəsində ölkəmizdə səfərdə olan İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda kənd təsərrüfatında aparılan islahatlar və əldə edilən nəticələrlə tanış olmaq məqsədilə kənd təsərrüfatı naziri Məcnun Məmmədovla görüşüb. Görüşdə İƏT və Azərbaycan arasında aqrar sahədə əməkdaşlığın mövcud vəziyyəti və yeni imkanlar barədə müzakirələr aparılıb. İƏT rəhbəri kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib.

**Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn hədəflər**

Azərbaycan hökuməti qida və ərzaq təhlükəsizliyinin etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafında müasir yanaşmalara, aqrar modellərə xüsusi üstünlük verir və bu istiqamətdə ən qabaqcıl aqrar institutlar, elmi-innovasiya mərkəzləri ilə sıx əməkdaşlıq edir. Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulmuş əsas istiqamətlərdən biri kənd təsərrüfatına müasir inkişaf meyarlarını gətirmək və müxtəlif ölkələrlə qarşılıqlı əməkdaşlığı gücləndirməkdir. Qarşıya qoyulan hədəflərə nail olmaq üçün İƏT ölkələri ilə əlaqələrin inkişafı da əsas niyyətlərdən biridir.

Son illərdə Azərbaycan və İƏT ölkələri arasında aqrar sahədə səmərəli əməkdaşlıq çərçivəsində təşkilatın ixtisaslaşmış orqanları ilə birgə regional layihələr həyata keçirilib. Üzv ölkələr tərəfindən irəli sürülən yeni təşəbbüslər dəstəklənib, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, aqrar sahədə məhsuldarlığın daha da artırılması, torpaq və su resurslarından səmərəli istifadə ilə bağlı birgə addımlar atılıb.

**İƏT ölkələrinə aqrar məhsulların ixracı arta bilər**

Hazırda Azərbaycan İƏT aqrar sahədə ənənəvi istehsal və emal üsullarından müasir aqrar-sənaye modelinə keçidi sürətləndirmək, "ağıllı kənd təsərrüfatı" texnologiyalarının tətbiqini genişləndirmək, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiqini təmin etmək, ekoloji təmiz və halal qida prinsipi ilə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri və aqroparklar yaratmaq üçün birgə təşəbbüsləri nəzərdən keçirir. Tərəflər bu layihələrin icrasında dövlət şirkətləri ilə yanaşı, özəl biznes icmasının fəaliyyətini əlaqələndirməyi vacib hesab edir.

Qeyd edilən sahələrdə hər iki tərəfin böyük potensialları mövcuddur. Bu resursların hərəkətə gətirilməsi İƏT ölələri ilə qarşılıqlı mal və aqrar xidmətlərin ticarətinin artmasına da yaxşı zəmin yaradır. Azərbaycanın hazırkı ixrac strategiyasında qeyri-neft ixracında aqrar-sənaye mallarının ənənəvi bazarlardan yeni bazarlara çıxışının təmin edilməsi və dayanıqlı ticarət infrastrukturlarının yaradılması mühüm yer tutur ki, bu baxımdan yeni imkanların səfərbər edilməsi ixracın coğrafiyasını daha da genişləndirə bilər. Eyni zamanda, Azərbaycanın istehsal etdiyi kənd təsərrüfatı məhsullarının İƏT ölkələri vasitəsilə Avropa bazarlarına ixracının genişləndirilməsi müasir ixrac-tranzit siyasətində mühüm yer tutur.

**Azad ərazilərdə investorlara aqrar güzəştlər**

Ölkəmizin perspektiv planlarına əsasən, aqrar sektorun müxtəlif bölmələrinə sərmayələrin cəlb olunması, xarici iş adamları arasında əlaqələrin gücləndirilməsi və təşviq edilməsi nəzərdə tutulur. Hökumət bu istiqamətdə müxtəlif stimullaşdırıcı iqtisadi alətlər, o cümlədən vergi və gömrük güzəştləri tətbiq edir. Xüsusilə də işğaldan azad edilmiş ərazilərdə xarici investorlar üçün geniştutumlu güzəştlər, səmərəli iqtisadi alətlər iş adamları üçün daha böyük imkanlar yaradır. Bu baxımdan İƏT ölkələrinin sərmayəçilərinə bu bölgədə aqrar layihələrdə təmsil olunmaq üçün mühüm şərait göstərilir.

Təşkilatın baş katibi Əsəd Məcid Xan mövcud əlverişli investisiya iqliminin dəyərləndiriləcəyini və azad edilmiş ərazilərdə aqrar sektorda mütərəqqi texnologiyaların tətbiqi və təcrübə mübadiləsi istiqamətində İƏT-in rolunun artırılacağını bəyan edib.

Azərbaycanla İƏT arasında əməkdaşlığın gündəliyində yer alan başlıca məsələlərdən biri də bu təşkilatın Regional Aqrar Tədqiqatlar və İnnovasiya Mərkəzinin yaradılması prosesinin sürətləndirilməsidir.

Beləliklə, İƏT ölkələri ilə aqrar sahədə yeni imkanların səfərbər olunması, birgə sərmayələrin qoyulması və aqrar layihələrin icrası ölkəmizdə istehsalın artmasına və birgə mal mübadiləsinin həcminin böyüməsinə səbəb olacaq. Həmçinin, müasir aqrar alətlərin tətbiqi sayəsində respublikamızın ərzaq təhlükəsizliyinin möhkəmlənməsində mühüm rol oynayacaq.

**ELBRUS CƏFƏRLİ**

# Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

## Azərbaycan və İsrail yeni iqtisadi layihələr icra etmək niyyətindədir

Azərbaycan və İsrail arasında iqtisadi əlaqələr son illərdə daha da inkişaf edərək yeni sahələrdə birgə layihələrin icrası üçün dərin zəmin yaratmaqdadır. Hər iki ölkənin biznes icması və iqtisadi strukturları arasında intensivləşən münasibətlər iqtisadi-ticari, investisiyalar üçün yeni imkanlar açır. Həmçinin davamlı xarakter alan Biznes-Forumlar sahibkarlar arasında təşəbbüskarlığı daha da artırır. Bu günlərdə İsraildə işgüzar səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun bu ölkənin iqtisadiyyat və sənaye naziri Nir Barkat ilə görüşündə investisiya əməkdaşlığının prioritetləri, sənaye zonaları çərçivəsində işbirliyi, işgüzar dairələr və biznes subyektləri arasında əlaqələrin gücləndirilməsi barədə müzakirələr aparılıb. Bu, tərəflər arasında yüksək səviyyəli əlaqələri daha da irəliyə aparmaq üçün yeni imkanların səfərbər olunması deməkdir.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycan Hökumətinin İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalar kimi mühüm yer tutur. Bu, eyni zamanda iqtisadi-ticarət təmasların daha da inkişafını sürətləndirir.

Həmçinin İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası iki ölkə arasında mədəni, elmi, iqtisadi əməkdaşlığın genişlənməsində də böyük rol oynayır.

**Biznes Forumları iqtisadi imkanları artırır**

İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında mühüm yer tutur. Bu ölkə ilə respublikamız arasında qarşılıqlı investisiya, həmçinin, energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. İşgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi və İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması üzrə işlər davam etdirilir. İsrail şirkətləri ilə həmçinin sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də tərəfdaşlıq edilir. İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyır.

Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlaması münasibətlərin yeni mərhələyə yüksəlməsində təkanverici rol oynayıb, bir sıra sahələrdə birbaşa təmaslar üçün hüquqi-iqtisadi sütunlar yaradıb.

Qarşılıqlı münasibətlərin inkişafında Azərbaycan-İsrail Biznes Forumları da mühüm rol oynamaqdadır. Tərəflər arasında ötən illərdə imzalanmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq sazişi, gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" konvensiya, iqtisadi sahəyə dair anlaşma memorandumları ticari-investisiya dinamikasını artırıb. Son illərdə ticari mübadilələrin həcmləri artaraq 1 milyard dollara yaxınlaşıb.

**Kosmik sənayedə uğurlu model**

İsrail və Azərbaycan arasında son illərdə müasir sənaye quruculuğu, süni intellekt, kibertəhlükəsizlik sahələrində əməkdaşlıq daha intensivləşib. Azərbaycanın 2026-cı ildə fəzaya buraxmağa hazırlaşdığı növbəti optik müşahidə peykinin hazırlanmasında israilli peşəkar mütəxəssislər də iştirak edir. "Azərkosmos" və "Israel Aerospace Industries" (IAI) şirkəti arasında imzalanmış müqaviləyə əsasən, "Azersky-2" kosmik peykinin dünya peyk ailəsinə qoşulması nəzərdə tutulur. Dünyanın ən güclü texnologiya şirkətlərindən olan "Israel Aerospace Industries" şirkəti yeni peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağında Azərbaycanlı



mütəxəssislərə köməkliyini göstəməkdədir. "IAI" proqram çərçivəsində "Azersky-2" üzrə iki peyk hazırlanması planlaşdırılır. İsraillə birgə 2026-cı ildə yeni peykin orbitə çıxarılmasından sonra 2028-ci illdə daha bir "Azersky-2" qurğusu fəzaya buraxılacaq.

**Süni zəka və kibertəhlükəsizlik sahəsində yeni platforma**

"İsrael Aerospace Industries" şirkəti dünyada unikal sənaye və kosmik mallar tədarükçüsü olmaqla Azərbaycanda da yeni innovasiyaların təşviqində və yeni nəsil texnologiyaların hazırlanmasında də dəstəyini göstərmək niyyətindədir. Süni zəka layihələrində tərəfdaşlıq üzrə səmərəli platforma qurulmaqdadır. Ölkələrimiz arasında kibertəhlükəsizlik üzrə də yeni imkanlar dəyərləndirilir. İsrailin "Technion" İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin təsis edilməsindən sonra Azərbaycanda kibertəhlükəsizlik sahəsində yeni platformanın qurulması planlaşdırılır ki, bu da kibertəhlükəsizlik məhsullarının araşdırılması və məhsul hazırlığı kimi starteji hədəflərin müəyyən edilməsində mühüm rol oynayacaq.

Azərbaycanın əlverişli işgüzar mühiti, azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq layihələri, burada yaradılan sənaye zonalarının fəaliyyəti də israilli iş adamları üçün maraq doğurur. Onlar bu bölgədə "ağıllı texnologiyaların" tətbiqi, aqrar layihələrdə iştirakı nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

# Azadlığın "heykəli"...

## Və ya "Azadlıq heykəli" Fransaya yaraşacaqmı?

Son 100 ildə fetişləşmiş "Qərb dəyərləri" anlayışı sürətlə deqradasiyaya uğrayır. Uzun illər Qərbin institusional təbliğat parametrləri sırasında yer alan "dəyərlər toplusu" bəlkə də 30 ildən artıqdır ki, göz ardı edilir. Bu faktdır - hətta gizlədilməsi mümkün olmayan faktdır.

Xüsusilə Avropanın vəziyyəti daha acınacaqlıdır - əsrlərlə məhək daşına çevrilmiş "azadlıq", "suverenlik", "insan hüquqları", "müstəqil fikir və söz" kimi anlayışlar artıq nəinki ikinci plana keçib, hətta manipulyasiya vasitəsinə çevrilib. Necə dəyərlər, azadlığın ancaq adı və "heykəl" qalıb...

Elə, "Azadlıq heykəli" ətrafında baş verən son hadisələr də bu qənaəti təsdiqləyir - odu söndürüb közü ilə oynayan Avropa itirdiyi dəyərlərin "heykəli"nin həsrətindədir. Məsələn, Fransa kimi...

### Qluksmanın iddiası...

Məsələnin mahiyyətinə keçməzdən öncə, son günlər yayılan bir xəbərə diqqət yetirək - Avropa Parlamentinin üzvü Rafael Qluksman ABŞ hakimiyyətindən "Azadlıq heykəli"ni Fransaya qaytarmağı "tələb edir". Onun "arqumenti" isə budur ki, mövcud ABŞ prezidenti və administrasiyası öz qərarları ilə azadlıq dəyərlərinin onlara yaxın olmadığını nümayiş etdirirlər.

Ukraynanı fəal şəkildə dəstəkləyən Qluksman çıxışında Vaşinqtonu Moskvaya yaxınlaşmaqda qınayıb - onun sözlərinə görə, ABŞ "tiranların tərəfinə keçməyə qərar verib". Fransız siyasətçi həmçinin, Donald Tramp administrasiyasını elmi araşdırmalarda müstəqil mövqe nümayiş etdirən alimləri işdən çıxardığına görə tənqid edib. Beləliklə, avropalı deputat ABŞ-ı "Azadlıq heykəli"ni geri qaytarmağa çağırıb. O, amerikalılara müraciət edərək, "Biz bunu sizə verdik, amma deyəsən, siz buna xor baxırsınız" deyib.

Xatırladaq ki, "Azadlıq heykəli" heykəltəraş Fredrik Oqüst Bartoldinin əsəridir. Bu heykəl fransızların amerikalılara azadlıq müharibəsinin yüzilliyi şərəfinə verdiyi hədiyyə idi. 46 metr hündürlüyündə olan mis heykəl 1886-cı ildə Nyu-Yorkun Liberti adasında açılıb. Heykəldə təsvir olunan qadın fiqurunun əlində olan tabletin üzərində, Amerikanın Müstəqillik Bəyannaməsinin tarixi olan 4 İyul 1776 tarixi yer alır.



### Fransanın ABŞ-a "borcu"...

Bir çox populist, qeyri-real çağırışların səsləndiyi müasir zamanda bəlkə də, bu "tələb" də qeyri-adi görünməzdi - amma... Öncə ABŞ-ın fransız deputata cavabına diqqət yetirək: Ağ Evin mətbuat katibi Karolin Levitt bildirib ki, "aşağı səviyyəli bir fransız siyasətçisinə tövsiyəm onlara xatırlatmaqdır ki, fransızların bu gün almanca danışa bilməməsi yalnız ABŞ-a görədir".

Bu fikrin altında yatan mahiyyət hər kəsə bəllidir. II Dünya Müharibəsi zamanı faşizm işğalına məruz qalan Fransa məhz ABŞ-Rusiya tandeminin də yer aldığı koalisiya tərəfindən azad edilmiş, hətta qaliblərin sırasında dayanmışdı. Bu mənada, amerikalı rəsminin nəyə işarə vurduğu bəllidir.

Gələk, fransız deputatın "arzusu"nun mahiyyətinə... Qluksman bu iddia ilə guya ABŞ-ın Ukraynaya nəzərən tutduğu hazırkı mövqeni tənqid edir. Amma hansı arqumentlər üzərindən? Bu "heykəl" azadlıq mövhumunun nəinki daşlaşdığı, hətta yoxa çıxdığı Fransaya nə qədər yaraşır və ya harasına yaraşır?

### Paris cinayətkarları dəstəkləyir...

Oradan başlayaq ki, 30 ilə yaxın Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə, 1 milyona yaxın insanın evindən yurdundan didərgin düşməsinə göz yuman, işğalçıya nəinki etiraz edən, hətta açıq şəkildə yardım edən Fransa hansı "dəyərdən" danışır? 30 ilə yaxın əli qana batmış, yüzlərlə günahsız insanın, hətta körpələrin qətlinə fərman verən, eləcə də icra edən erməni separatizmini dəstəkləyən Fransa hansı azadlığı "bütləşdirir"? Cənubi Qafqazda müharibənin dayanmaması, sülhün əldə olunmaması üçün İrəvana silah daşıdan, ara qarışdıran Paris azadlıq dəyəri haqqında hansı haqla danışır?

On illərlə cinayət məsuliyyətindən yayınan, törətdikləri əməllərin cavabını verməkdən boyun qaçıran cinayətkarları dəstəkləməkdirmi "azadlıq" tələbi? Fransız deputat öz ölkəsinə güzgüdə nəzər salaraq hansı meyarlar üzərindən belə bir tələb irəli sürür?

### Yüzillərlə soyqırımları törədən Fransa...

Və ya Parisdə addımbaşı təqib olunan müsəlmanlara, diskriminasiyaya məruz qalan, öldürülən, təhqir edilən mühacirlərə münasibət hər kəsə bəllidir. İslamofobiyanın tüğyan etdiyi, fərqli fikrə qarşı dözümsüzlük nümayiş etdirən, beynəlxalq hüquqa zidd mövqeyi ilə seçilən Paris hökumətinin hansı məziyyəti ilə uzlaşır "heykəl tələbi"? Fransanın adı mühacirlərin istismar olunmasında, orqan mafiyasının "şöhrət qazanmasında", XXI əsrdə qul əməyindən istifadədə hallanır. Budurmu, "azadlıq" keşiyində dayanmaq?

Dənizaşırı ərazilər rəsmi Parisdən haqlı olaraq öz azadlıqlarını tələb edirlər - Azəbaycanın təşəbbüsü ilə yaradılan Bakı Təşəbbüs Qrupu Fransanın apardığı neokolonialist siyasəti ifşa edib. Onlarla ərazini hələ də müstəmləkə kimi yumruq altında saxlayan Fransa hansı dəyərdən söz açır və ya hansı dəyəri qoruyur?

Korsikada yaşayan insanların haqqını tanımayan, ən adi hüquqların belə məhdudlaşdıran Fransa hakimiyyəti bu zorakı addımları ilə "Azadlıq heykəli"nə layiq bilirlər özlərini?

Yoxsa, Əlcəzairdə, Afrikanın ayrı-ayrı yerlərində soyqırımları törətmələri, milyonlarla insanı qətlə yetirmələrini, ölkələrin azadlıq istəyini qanda boğmaq üçün səfərbər olan Fransa layiqdir bu heykələ? Fransanın Afrikada apardığı qətliamları təsdiqləyən muzeylər, soyqırımı abidələri, nişanələr ildə milyonlarla insan tərəfindən ziyarət edilir. Bu soyqırımlarına aid minlərlə insanın çıxışı, video-çəkilişlər, filmlər və sənədli faktlar mövcuddur. Fransa etdiyi haqsızlıq və qətliama görə məsuliyyətdən hələ də boyun qaçırır - budurmu, onların azadlığa "hörməti"?

### İslamofobiyanın və neokolonializmin simvolu...

Yüz illər boyu sömürgəçiliklə məşğul olan Fransa son günlərə qədər müstəmləkə altında saxladığı ərazilərin sərvətlərini talamaqdadır. Həmin regionların əhalisinə zülm edən fransızlar ekologiyanı çirkləndirir, təhlükəli maddələri, xüsusilə radioloji artıqları həmin torpaqlara daşıyıb insanların kütləvi şəkildə məhv edilməsinə yol açırlar. Həmin bölgələrin yerəltı və yerüstü sərvətləri Fransaya daşınır. İnsanlara nəinki azadlıq, hətta primitiv hüquqlar tanınmır - hələ də bəzi bölgələrlə seçki hüquqları ilə bağlı çatışmazlıqlar və fərqli standartlar tətbiq edilir. Və ya həmin regionlarda dini-irqi ayrı-seçkilik bütün parametrlər üzrə özünü büruzə verir. Fransa bunların həlli ilə bağlı hansı addımları atır? Heç bir addım...

Əksinə, Afrikada əlindən saxladığı və iqtisadi müstəmləkəyə çevirdiyi əraziləri tərk etmək üçün radikal terror qruplaşmaları ilə işbirliyinə gedir, insanları təhdid edir, BMT nizamnaməsini pozur, veorilən qərarları icra etmir - bir sözlə, Fransa bu gün dünyada qanunsuzluğun, ikili standartın, neokolonializmin, islamofobiyanın, azadlıqların məhdudlaşdırılmasının simvolu kimi çıxış edir. Belə bir dövlətə isə "Azadlıq heykəli" yaraşmır...

**Pərviz SADAYOĞLU**

# Kipr məsələsi Cenevrədə...

## Sammitdən nə gözlənilir?

Kipr məsələsi üzrə danışıqlar prosesi yenidən bərpa oluna bilər - qeyd edək ki, martın 17-18 - də Cenevrədə Millətlər Sarayında BMT-nin himayəsi altında və BMT-nin Baş katibi Antonio Quterreşin vasitəçiliyi ilə Kipr nizamlanmasına dair ikigünlük sammit keçirilib. Qərb KİV-lərinin məlumatına görə, sammitin məqsədi ada probleminin həlli üçün Kiprin yunan və türk tərəflərini 2017-ci ildə yarımçıq qalmış danışıqların bərpasına təşviq etməkdir. Məlumat üçün bildirək ki, Genevrədəki danışıqlar "5+1" formatında keçirilib - danışıqlar masasında adanın yunan və türk icmalarının liderləri Ersin Tatar və Nikos Kristodulides ilə yanaşı, prosesdə zəmanətçi qismində çıxış edən üç dövlət - Türkiyə, Yunanıstan və Britaniyanın XİN rəhbərləri Hakan Fidan, Yorqos Herapetritis və Stiven Doti, o cümlədən Avropa İttifaqının nümayəndə heyəti də iştirak edib. Sammitdə əsas müzakirə mövzusu danışıqlar prosesinin bərpası ilə bağlı olub.

### 50 ildə nəticəsiz danışıqlar

1974 - cü ildən başlayaraq 2017-ci ilə qədər Kipr probleminin nizamlanması üzrə ikitərəfli və çoxtərəfli formatlarda bir çox danışıqlar aparılıb. Problemin həlli üçün bir sıra həll variantları irəli sürülüb. Danışıqlar prosesində türk icmasının əsas hədəfi adada federal dövlətin yaradılması və federal çərçivədə türk tərəfini yüksək özünüidarəetmə statusu ilə təmin etmək hüququnu tanıtdırmaq olub. 1977-ci ildə BMT-nin vasitəçiliyi ilə türk və yunan icmalarının rəhbərləri Rauf Denktaş və keşiş Kristodules Makarios arasında keçirilən danışıqlarda hər iki tərəf adada federal dövlətin əsasının qoyulması üçün saziş imzalayırlar - sazişdə siyasi və iqtisadi hüquqların qarşılıqlı şəkildə tanınması öz əksini tapmışdı. Lakin Makariosun ölümündən sonra bu saziş qüvvədən düşdü. 1979-cu ildə ABŞ və BMT tərəfindən federal normalara söykənən həll planları irəli sürülsə də, hər iki tərəfin bir çox məsələlərdə ortaq məxrəcə gəlməməsi buna imkan vermədi. 1983-cü ildə Şimali Kipr Türk Respublikası öz müstəqilliyini elan etdi və ŞKTR-nin müstəqilliyi Türkiyə tərəfindən dərhal tanındı. Buna baxmayaraq, BMT-nin himayəsi altında hər iki tərəf arasında danışıqlar davam etdi. 1983-1986, 1991-1994 və 2002-2004 -cü illərdə BMT-nin vasitəçiliyi ilə aparılan ikitərəfli və "5+1" formatındakı danışıqlarda BMT-nin Baş katibliyi tərəfindən federal prinsiplərə əsaslanan müxtəlif həll variantları irəli sürüldü. BMT-nin təkliflərinə görə, adada həm türk, həm də yunan icması yüksək özünüidarəetmə statusuna və xüsusi siyasi və iqtisadi zonalara malik olmalı, eyni zamanda, türk və yunan icmalarının nümayəndələrindən ibarət qanunverici, icraedici və məhkəmə sistemi formalaşdırılmalı idi. Bu variantlarda türk və yunan məcburi köçkünlərin mülki hüquqları ilə bağlı məsələlər də öz həllini tapmalı idi. BMT-nin həll planları ŞKTR-nin prezidenti Rauf Denktaş tərəfindən müsbət qarşılansa da, yunan tərəfinin rəhbərliyinin riyakarlığı və türk düşmənçiliyi səbəbindən bu variantlar da həyata keçmədi. Həttə 2004-cü ilin aprelin 24-də Kiprin türk və yunan tərəfində vahid federal dövlət şəklində birləşmək üçün keçirilən referendumda adanın türk əhalisinin 64.90 faiz bu ideyanı müsbət, yunanların 75.83 faiz isə bunu mənfi qarşılamışdı. Referendumun nəticələri onu sübut etdi ki, adada türklərin özünüidarəetmə hüquqlarına malik olması yunan icmasında birmənalı qarşılanmır. Amma yenə də ŞKTR-nin Rauf Denktaşdan sonrakı rəhbərləri Mehmet Əli Talat, Dərviş Əroğlu və Mustafa Akıncı yunan tərəfi ilə ikitərəfli formatda, o



cümlədən üçtərəfli və beştərəfli formatda danışıqları davam etdirdi. Sözsüz ki, danışıqlarda ənənəvi həll variantları üzərində müzakirələr aparılırdı. On iki illik danışıqlarda da heç bir şəkildə ortaq razılaşma əldə olunmadı. Təbii ki, burada əsas günahkar elə yunan tərəfinin rəhbərliyi idi. 2017-ci ilin yayında İsveçrədə keçirilən son danışıqlar da nəticəsiz bitdi. Məhz bundan sonra danışıqlar prosesi tamamilə donduruldu.

### Ümidlər var?

Martın17-18 -dəki Cenevrə görüşlərindən sonra danışıqlar prosesinin yenidən canlanması məsələsinə gəlincə, türk ekspertləri hesab edirlər ki, prosesin tezliklə bərpa olunacağı gözlənilmir. ŞKTR-nin beynəlxalq münasibətlər üzrə ekspertləri Ahmet Sözən, Bülent Evre, Küdrət Özərsay və Yücel Vural Kipr Radio Yayım Qurumuna müsahibəsində Cenevrə sammitindən gözləntilər, rəsmi danışıqların nə zaman başlayacağı və federal həll variantlarının yenidən gündəmdə olub-olmayacağı ilə bağlı məsələlərə aydınlıq gətiriblər. Ekspertlərin fikrincə, hazırkı durumda hər iki tərəf arasında ciddi fikir ayrılıqları müşahidə olunur və rəsmi danışıqların başlanması üçün münasib şərait yoxdur - bu baxımdan onlar yaxın zamanda mühüm dəyişikliklərin baş verəcəyini gözləmədiklərini bildiriblər.

### Yeganə həll yolu nədir?

ŞKTR-in hazırkı prezidenti Ersin Tatar Kipr probleminin həllinin yalnız "iki dövlətli" plan çərçivəsində mümkün olduğunu bildirib - o, yerli və xarici media qurumlarına açıqlamalarında dəfələrlə ŞKTR-nin statusunun beynəlxalq səviyyədə tanınmasının vacibliyini vurğulayıb. Qeyd edək ki, belə bir həll planı vaxtilə İsrail-Fələstin münaqişəsinin nizamlanması üçün irəli sürülmüşdü və plan hələ də gündəmdədir. Realığa baxanda, prezident Ersin Tatar öz mövqeyində tamamilə haqlıdır. Çünki son 50 ildə türk icması yunan icması ilə adada vahid federal dövlət qurmaq uğrunda mübarizə aparırdı və qanlı münaqişənin baş verməsinə rəğmən yunanlarla birgə yaşamağa hazır olduğunu bəyan edirdi. Amma yunan tərəfinin rəhbərliyi türk icmasının dostluq və birgə yaşayış çağırışlarını düzgün qiymətləndirmədi, türk tərəfinin siyasi, iqtisadi və mədəni hüquqlarını tanımaq istəmədilər. İndi isə federal dövlətin əhəmiyyətindən dəm vururlar. Artıq çox gecdir. Vaxtilə uzunan ələ hörmət etmək lazım idi.

***Yunis ABDULLAYEV***

# Tehran-Vaşinqton münasibətləri gərginləşir...

## Husilərin hücumu danışıqları başlamamış bitirə bilər

Son dövrlərdə İran ilə ABŞ arasında münasibətlər yenidən kəskin hal almaqdadır. İki ölkənin rəsmiləri arasındakı ritorikaya diqqət yetirdikdə, vəziyyətin ciddiliyi ortaya çıxır. Xüsusilə, İran ilə ABŞ arasında nüvə proqramı ilə bağlı gərginlik artmaqdadır. ABŞ Prezidenti Donald Trampın İranın nüvə silahı əldə etməsinə imkan verməyəcəyini bəyan etməsi vəziyyəti daha da kəskinləşdirib. Trampın bu mövqeyi fonunda, İranın Ali Rəhbəri Ayətullah Əli Xamenei ABŞ-ın danışıqlar təklifini "aldadıcı" adlandıraraq rədd edib. O, ABŞ-ın təkliflərinin səmimiyyətdən uzaq olduğunu və məqsədinin İrana qarşı təzyiqləri artırmaq olduğunu bildirib. Paralel olaraq İran Prezidenti Məsud Pezeşkian da Trampı sərt tənqid edərək, onun siyasətini qınayıb.

### Nüvə danışıqları necə yarımçıq qaldı...

Qeyd edək ki, 2015-ci ildə Vyanada rəsmi adı ilə Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA - Joint Comprehensive Plan of Action) imzalandı. İran ilə BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin) və Almaniya (P5+1) arasında imzalanmış nüvə razılaşmasının əsas məqsədi İranın nüvə proqramını məhdudlaşdırmaq və əvəzində ona qarşı tətbiq edilən beynəlxalq sanksiyaları yüngülləşdirmək idi. Sazişin əsas məqamları uranın zənginləşdirilməsinə məhdudiyyətlərin qoyulması, nüvə obyektlərinə nəzarət - Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) İranın nüvə obyektlərini mütəmadi yoxlamaq hüququ əldə etməsi və İran üzərinə tətbiq edilmiş iqtisadi və maliyyə sanksiyalarının aradan qaldırılması, xarici investisiyalara və neft satışına yol açılması kimi xarakterizə olunurdu. Amma nəticə etibarı ilə proses yarımçıq qaldı - 2018-ci ildə ABŞ prezidenti Donald Tramp ölkəsini Vyana sazişindən çıxardığını elan etdi və İrana qarşı sanksiyaları bərpa etdi. ABŞ-ın bu addımı digər JCPOA iştirakçılarının etirazına səbəb oldu, lakin İran da buna cavab olaraq razılaşmanın bəzi öhdəliklərindən imtina etdi. 2021-ci ildə Co Bayden administrasiyası sazişin bərpası üçün diplomatik səylərə başladı, lakin İranla yeni razılaşma əldə olunmadı.

Hazırkı durumda isə yayılan xəbərlərə görə, İran uran zənginləşdirmə səviyyəsini 60 faizə qədər artırıb. Vyana Sazişi isə hazırda qeyri-müəyyən vəziyyətdədir və onun taleyi İran, ABŞ və digər dünya güclərinin siyasi qərarlarından asılıdır.



### ABŞ xəbərdarlıq edir...

Qeyd edək ki, bir neçə gün öncə Tramp Əli Xameneiyə məktub ünvanlamışdı. Bu barədə məlumatı Tramp "Fox Business" telekanalına müsahibəsində açıqlamışdı və bildirmişdi ki, məktubda İranın nüvə proqramına dair danışıqlar üzrə təklif verib: "İranla saziş bağlamağa üstünlük verərdim". O, həmçinin İranın nüvə silahı əldə etməməli olduğuna dair fikrini bir daha təkrar etmişdi.

Tehranın isə cavabı fərqli olmuşdu - İranın dini lideri bildirmişdi ki, Tramp öz tələblərini qəbul etdirməyə çalışır, ancaq bunu qəbul etməyəcəyik.

Bu arada ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts deyib ki, Vaşinqton İranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün bütün variantları nəzərdən keçirir. Bu barədə ABC telekanalında məlumat verilib. O vurğulayıb ki, Tramp dəfələrlə İranın nüvə silahı əldə etməsinin qəbuledilməz olduğunu bildirib. Uolts Tehranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün "bütün variantların" masa üzərində olduğunu söyləyib. ABŞ prezidentinin köməkçisi qeyd edib ki, Tehran nəticələrlə üzləşə bilər. "İstənilən halda, barmağını nüvə düyməsinə basan ayətullahlarla barışa bilmərik. Biz nüvə silahının yayılması baxımından Yaxın Şərqdə silahlanma yarışına gətirib çıxaran vəziyyətə getməməliyik. Prezident Tramp isə bu və ya digər şəkildə bunu etməkdə qərarlıdır", - deyə Uolts bildirib.

### Əraqçı "danışıqlar başlayıb" deyir...

İranın xarici işlər naziri Abbas Əraqçı isə Tehran ilə Vaşinqtonun artıq vasitəçilər vasitəsi ilə danışıqlar apardıqlarını söyləyib. Nazir tərəflərin müzakirə mövzusunun İranın nüvə proqramı olduğunu deyib.

Əraqçı deyib: "Bizim mümkün nüvə danışıqları üçün planımız və düşünülmüş strategiyamız var. Danışıqlar vasitəçilər vasitəsilə davam etdirilir və üç Avropa ölkəsi (Böyük Britaniya, Almaniya və Fransa) ilə də qarşılıqlı fəaliyyət kanalı saxlanılır".

Nazir İranın Beynəlxalq Atom Enerjisi Agentliyi və onun baş direktoru Rafael Qrossi ilə əməkdaşlıq etdiyini qeyd edib.

### Husilər aranı qatdı...



Bu arada husilərin Qırmızı dənizdə Amerikanın təyyarədaşıyan "USS Harri Truman" və digər döyüş gəmilərinə hücum etməsi vəziyyəti yenidən gərginləşdirib. Xatırladaq ki, husilər 18-ə yaxın ballistik və qanadlı raket, həmçinin PUA-larla hücum ediblər. Bu isə hazırkı vəziyyəti daha da dramatikləşdirib. Belə ki, ABŞ-ın maliyyə naziri Skott Bessent "NBC News"a müsahibəsində bildirib ki, Yəməndə husilərə qarşı əməliyyat Tramp administrasiyasının İrana "maksimum təzyiq" göstərmək strategiyasının yalnız başlanğıcıdır. "Bu, güclü siqnaldır və əvvəlki administrasiyanın siyasətindən köklü şəkildə uzaqlaşmadır. Husilər və İran başa düşməlidirlər ki, bu, yalnız başlanğıcdır. Biz dünya ticarətini yavaşlatan və inflyasiya təzyiqlərini artıran gəmiçiliyin tıxanmasına imkan verməyəcəyik. İki həftə əvvəl Tramp İrana qarşı "maksimum təzyiq" strategiyasını elan edib və bu strategiyanın məqsədi İran neftinin ixracını sıfıra endirməkdir", - deyə o, bildirib.

***SADİQ***

## Bizim müsahib

# Yulia Ferştandt: Azərbaycan mənim vətənimdir...

**- Yulia xanım, öncə oxucular sizi tanısın...**

- Mən Yulia Ferştandt, uzun illərdir Azebaycan Akademik Opera və Balet Teatrında aparıcı solist olaraq çalışıram.

**- Balerina olmaq həvəsi haradan yarandı?**

- Uşaqlıq illərimdə televizordan "Mavi quş" baletini, eləcə də İqor Moiseyev adına rəqs ansamblının çıxışlarını izləyirdim. İzlədikcə hiss edirdim ki, məndə balet sevgisi yaranır. Bundan əlavə, qonşumuz balerina idi, qızı xoreoqrafiya məktəbində oxuyurdu. Onları balerina geyimində görəndə çox həvəslənirdim.

**- Balet sənətinin fiziki tərəfləri məlumdur, bəs psixoloji çətinliklər hansılardır?**

- Təbii ki, psixoloji çətinliklər də var, bu hisslər idmançının yarışdan əvvəl yaşadığı hisslərə bənzəyir. Həyəcan və narahatlığın sizə manеə olmasına imkan verməməlisiniz. Düzdür, bəzən bu, çox çətin olur, lakin çoxlu məşq edərək bunu bacarmalısan.

**- Nə vaxtdan Opera və Balet teatrında çalışırsınız?**

- Rəsmi olaraq 2002-ci ildən teatrda çalışıram, amma ondan bir il əvvəldən fəaliyyətə başladım. İştirak etdiyim ilk tamaşa müəllimim, Azərbaycanın Xalq Artisti Tamila Şirəliyevanın quruluşunda bəstəkar Tofiq Bakıxanovun "Xəzər balladası" oldu.

**- Hansı obrazlar və ya tamaşalar sizin yaddaşınızda iz qoyub?**

- Təbii ki, bütün rollarım mənə əzizdir: A.Adəmin eyniadlı baletindəki Jizel mənim üçün inanılmaz dərəcədə maraqlı, dərin və yaxın obraz oldu. F.Əmirovun "1001 gecə" baletindəki parlaq, müdrik və rəngarəng Şəhrizad obrazım oynamaq da maraqlı idi. Bundan əlavə "Məhəbbət əfsənəsi" baletinin Şirin, "Şelkunçik" baletindən Maşa obrazları da sevdiklərimdəndir.

**- Rusiyada balet artistləri balerina Anastasiya Voloçkovanın çəkisi çox olduğu üçün qaldırmağa gücləri çatmadığını deyirlər. Azərbaycan səhnəsində də elə problemlər olurmu?**

- Xeyr, bütün balerinalarımız özlərini əla formada saxlayırlar. Bizim partnyorlarımız güclü və hazırlıqlıdır, ona görə də bizdə belə problemlər olmur.

**- Sizin bu qədər incə olmağınız işinizlə bağlıdır?**

- Daha çox işimi nəzərə alaraq pəhriz saxlayıram.

**- Bizim cəmiyyətimizdə balet o qədər də geniş yayılmayıb. Tamaşaları daha çox ziyalı, elit təbəqənin insanları izləyirlər. Sizcə niyə?**

- Əslində, yaxın vaxtlara qədər belə idi, indi isə yeni rəhbərliyin gəlişi ilə Azərbaycan baletinə marağın açıq şəkildə artdığını görürük. Bu bizi çox sevindirir.

**- Səhnədə başınıza gözlənilməz hadisələr gəlibmi?**

- Bir dəfə rəqs ayaqqabılarımı unutmuşdum və bunu səhnəyə çıxandan sonra bildim.

Qrim otağına getmək imkanım yox idi, həmin vaxt tamaşada birlikdə rəqs etdiyim baldızım Liya Ferştandtın ayaqqabılarını götürdüm. Ayaq ölçümüz eyni olsa da, heç vaxt bir-birimizin ayaqqabılarından istifadə etmirik. İlk çıxışımı etdim, hər şey yaxşı keçdi. Həmin vaxt çox həyəcanlanmışdım, lakin son anda çıxış yolunu tapdıq, belə hadisələr arada olur.







**- Azərbaycan dilini mükəmməl bilirsiz?**

- Hələki mükəmməl danışa bilmirəm, lakin təkmilləşdirməyə çalışıram.

**- Nə vaxt öyrəndiniz?**

- Tədricən, dostlarım və həmkarlarımla ünsiyyət vasitəsilə öyrəndim.

**- İşiniz bunu tələb elədi yoxsa necə?**

- Biz işdə həm Azərbaycan, həm də rus dilində danışırıq. Onu da qeyd edim ki, bütün dünyada geniş istifadə olunan fransız balet terminlərindən də çox istifadə edirik.

**- Baletdə çox vaxt əsas partiyaları ifa edirsiniz. Sizi fərqləndirən nədir ki, bu rollar sizə verilir?**

- Bu suala cavab vermək çətindir, yəqin ki, bu rolları mənə etibar edən insanların güvənini qazandığımdandır. Onu deyə bilərəm ki, bütün rollarıma böyük fədakarlıqla və həvəslə hazırlaşıram.

**- Tamaşalar zamanı xəsarət alsanız, tibbi sığortanız varmı? Və yaxud işlədiyiniz teatr bu xərcləri qarşılayar?**

- Bizdə belə hallar yoxdur. Düşünürəm ki, teatr qarşılayır. Ümid edirəm ki, belə hallarla qarşılaşmarıq.

**- Yoldaşınız da balet sənətçisidir. Tanışlığınız necə oldu?**

- Həyat yoldaşım - Makar Ferştandt, Azərbaycanın əməkdar artisti, eyni zamanda, teatrımızın aparıcı solistidir. Biz xoreoqrafiya məktəbində birlikdə oxumuşuq və son illərimizdə ünsiyyət qurmağa başladıq. Sonra ailə qurduq və iki gözəl qızımız var, qeyd edim ki, qızlarımız da balet akademiyasında oxuyur.

**- Belə çıxır ki, siz ailəlikcə bu sənətlə məşğulsunuz?**

- Bəli, hətta həyat yoldaşımın bacısı ilə bir balet truppasında işləyirik, övladlarımız isə xoreoqrafiya akademiyasında oxuyur. Məlum olduğu kimi balet sevgisi onlara miras yolu ilə keçib.

**- Niyə məhz digər ölkələr yox, Azərbaycan?**

- Azərbaycan mənim vətənimdir, mən burada doğulmuşam, valideynlərim, həyat yoldaşım, onun valideynləri burada yaşayır. Azərbaycanda böyüyüb təhsil almışam, indi də teatrımıza xidmət edirəm. Azərbaycanda balet sənətinin gələcək taleyinə biganə deyiləm.

**- Yaxın günlərdə Azərbaycanın xalq artisti Tamila Şirəliyeva dünyasını dəyişdi. Bildiyim qədər müəlliminiz olub...**

- Bəli, Tamila Şirəliyeva Xoreoqrafiya akademiyasında müəllimim olub. O, mənə müəllim kimi çox şey öyrətdi. Balerina olaraq xarakter formalaşdırdı, bu peşəyə sevgi ilə yanaşmağı öyrətdi. Bizi həmişə dəstəkləyirdi. Ona ömür boyu təşəkkür edəcəm. Tamila Şirəliyevanın əbədi gedişi hamımızı çox üzdü. Allahdan ona rəhmət diləyirəm. Əsl sənətkarlar hər zaman yaşayırlar.

**Söhbətləşdi: Havar Şəfiyeva**

# Zelenski ərazi güzəştlərinə gedəcək?

Qərb KİV-ləri qeyd edirlər ki, Zelenski atəşkəsin təmin olunması üçün Rusiyaya güzəştə getmək niyyətindədir - onların iddialarına görə, rəsmi Kiyev daha çox ərazi itirməmək üçün ərazisinin bir qisminin müvəqqəti olaraq Rusiyanın nəzarəti altında qalmasına razı olacaq. Amma danışıqlar dövründə Kiyev ərazilərinin diplomatik yolla qaytarılmasına çalışacaq. Artıq ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uoltz da bu iddiaları təsdiqləyir - o, bildirib ki, Donbas və rusdilli əhalinin çoxluq təşkil etdiyi ərazilərin Moskvanın nəzarətinə keçməsinə razılıq verilə bilər. Hətta Ağ Evdən verilən qeyri-rəsmi məlumatlara görə, Ukraynada gələcək təhlükəsizlik zəmanətləri müqabilində Kiyevin ərazilərdən bir növ imtinası nəzərdə tutulur.

## Ehtimal böyükdür

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Ukraynada müharibənin sona çatmasında yeganə yol rəsmi Kiyevin mövcud şərtlər daxilində müəyyən ərazilərini güzəştə getməsindən asılıdır.

"Təbii ki, Ukrayna müharibənin belə bir şərtlərlə bitməsini istəmir, amma buna getməyə məcburdur. ABŞ-Rusiya danışıqları, xüsusilə Trampın mövqeyi Ukraynanı çox ağır və çətin vəziyyətə salıb. Ağ Evdə Trampla qarşıdurmadan sonra Zelenski vəziyyətdən çıxmaq üçün Avropa İttifaqından və Avropa ölkələrindən dəstək almağa çalışdı. Ancaq onun bu cəbaları da puça çıxdı. Martın əvvəlində Londonda təşkil olunan sammitdə Aİnin liderləri Zelenskiyə Trampın təklifləri ilə razı olmağı tövsiyə etdilər. Avropanın öz yaxasını kənara çəkməsi Zelenskini mövcud durumla barışmaq məcburiyyətinə qoyub. Ona görə də hesab edirəm ki, Ukraynada gözlənilən atəşkəs Kiyevin öz ərazisinin bir hissəsini Rusiyaya güzəştə gedəcəyi təqdirdə mümkün olacaq". A.Nərimanlının sözlərinə görə, Rusiya daha ağır şərtlər irəli sürə bilər: "Moskvanın danışıqlarda əsas tələblərindən biri Ukraynanın NATO-ya üzv olmaması ilə yanaşı, hazırda rus ordusunun nəzarəti altında olan ərazilər üzərində Rusiyanın de-yure nəzarətinin tanınması olacaq. Hətta Kreml daha irəli gələrək Ukraynanın dörd cənub-şərq vilayəti - Donetsk, Luqansk, Zaporojye və Xersonun tam olaraq ona verilməsini də tələb edə bilər. Sözsüz ki, bunun nə qədər mümkün olacağı sual altındadır. Ukraynanın nə qədər ərazisini güzəştə gedəcəyi məsələsinə gəlincə, bu, atəşkəsdən sonrakı danışıqlarda müzakirə olunacaq detallardan bəlli olacaq". Politoloq əlavə edib ki, Tramp administrasiyası Zelenski hakimiyyətini ərazi güzəştlərinə getməsinə vadar edir: "Tramp və onun komandasının üzvləri öz bəyanatlarında bunu dəfələrlə səsləndiriblər. Habelə bu yaxınlarda Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən ABŞ-Ukrayna danışıqlarında da bu məsələyə toxunulub.



Xüsusilə bir məqamı da qeyd edim ki, ABŞ və Avropa üçün Ukraynanın ərazi bütövlüyü arxa plana keçib".

## Zelenski ümid edir

"Zelenskinin dəyişən mövqeyinə gəlincə, bunu bir neçə kontekstdə qiymətləndirmək lazımdır. Onun əvvəlki bəyanatlarına nəzər yetirsək, görərik ki, o, heç bir halda ərazi güzəştlərinə getməyəcəyini bəyan edirdi. Təbii ki, bu, daxili rəyə hesablanmışdı. Çünki atəşkəsin təmin olunması istiqamətində danışıqların başlandığı gündən Ukrayna ictimaiyyətində Zelenskinin ərazi güzəştlərinə gedib-getməyəcəyi ilə bağlı məsələ ciddi narahatlıq yaradıb. Digər tərəfdən, Ciddədə keçirilən görüşdən sonra Zelenskinin ABŞ-ın 30 günlük atəşkəs təklifinə razı olması onu deməyə əsas verir ki, o, hazırkı acınacaqlı durumdan çıxış yolları axtarmaq hədəfindədir. Moskva da bunu anladığı üçün Vaşinqtonun təklifinə o qədər də müsbət yanaşmır. Ukrayna hakimiyyətində belə ümid yaranıb ki, otuz gün müddətində vəziyyət onların xeyrinə dəyişə bilər. Amma bu ehtimalın baş tutması inandırıcı deyil, hətta deyərdim ki, sıfırın altındadır. Qısa müddət ərzində vəziyyətin dəyişməsi qeyri-mümkündür," - deyə A.Nərimanlı vurğulayıb.

A.Nərimanlı atəşkəsdən sonrakı vəziyyətə də münasibət bildirib: "Rusiyanın Ukraynanın cənub-şərq əraziləri üzərində de-yure nəzarətinin tanınması mümkünsüz görünür. Əgər belə bir addım atılarsa, beynəlxalq hüquq tam

## Münaqişə dondurulacaq

sıradan çıxarılacaq. Rusiyanın bu ərazilər üzərində nəzarəti yalnız de-fakto səviyyəsində tanınacaq. Ukraynadakı münaqişə isə dondurulacaq və uzunmüddətli danışıqlar prosesi başlayacaq. Bu prosesdə həmin ərazilərin gələcək taleyi müəyyən olunacaq".

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




## Ramazan ayı: 19-cu günün duası

"Allahummə vəffir fihi həzzi min bərəkatih. Və səhhil səbili ila xeyratih. Və la təhrimni qəbulə həsənatih. Ya hadiyən iləl-həqqil-mubin".

**Tərcüməsi:**

"İlahi, bu günün bərəkəti ilə məni bəhrələndir! Xeyirliklərə doğru yolumu hamarla! Bu günün ehsanını qəbul etməkdən məni məhrum etmə! Ey aşkar haqq yolunun hidayətçisi".

# 19 mart terroru...

## Bakı metrosundakı faciədən 31 il ötür!



Xalqımız müxtəlif zamanlarda Ermənistanın xüsusi xidmət orqanları tərəfindən hazırlanmış terror hadisələrinin qurbanı olub. Çoxsaylı sakinlər-qadınlar, uşaqlar və qocalar ermənilərin təşkil etdiyi bu qanlı terrorlar zamanı həyatlarını itiriblər. Bu hadisələrin hər biri isə tariximizin qanlı səhifələridir. 1990-cı illərdə Azərbaycanda daxildə baş verən qarışıqlıqlar həmçinin, Ermənistanın təcavüzkar hücumları ölkəni zəiflətmişdi. Ölkəmizi hədəf alan düşmən qüvvələri müxtəlif tərəflərdən hücumlar təşkil etməyə başlamışdılar.

Onlardan biri də 1994-cü ilin 19 martında oldu. Bu gün Ermənistan xüsusi xidmət orqanlarının Bakı Metropolitenində törətdiyi terror aktından 31 il ötür. Saat 13:00 radələrində Bakı metrosunun "20 Yanvar" stansiyasında baş vaqona qoyulmuş saat mexanizmli əldə düzəltmə bomba qatar stansiyada dayananda işə düşüb. Həmin hadisə zamanı 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanlar arasında Azərbaycanın Xalq artisti Rafiq Babayev də olub.

İstintaq və məhkəmə yolu ilə sübut edilib ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanıb. Hadisə Qarabağ uğrunda gedən döyüşlər zamanı-13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilib.

Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdu ki, 14 yanvar 1994-cü ildə Zori Balayan hərbi əsir Azər Aslanovla görüşüb, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirib. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı A.Aslanovun Bakıdakı mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirib və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd edib. 16 iyun 1994-cü il tarixində A.Aslanovun anası Tacibat Aslanova Yerevana gedir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilir. Bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə "Ömər-75" təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilir.

Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanır, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodarant qutularında gizlədilir. A.Aslanov "Yerevan-Mineralnıye Vodı-Bakı"marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyası arasında qatarda terror aktını həyata keçirib və yenidən Ermənistana qayıdıb.

İstintaq zamanı müəyyən edilmişdi ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olub. Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Qarabağın qeyri-qanuni rejiminin funksionerləri və Ermənistanın xüsusi xidmət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilib.

Bununla da Moskvada Azərbaycan vətəndaşı Azər Aslanov həbs edilir. 1997-ci ilin 29 noyabr tarixində onu Azərbaycana göndərirlər. 1998-ci ildə Aslanov bu terror aktını keçirmək göstərişini erməni əsirliyində olarkən, publisist Zori Balayandan aldığını deyir. Beləliklə, Azər Aslanova ömürlük həbs cəzası verilir.

Aslanovun ifadələri əsasında, məhkəmənin göstərişi ilə Zori Balayana qarşı cinayət işi açılır, 1999-cu ildə Azərbaycan Respublikasının Baş Prokurorluğunun təqdimatı əsasında Balayan haqqında İnterpolun xətti ilə beynəlxalq axtarış elan edilir. Daha sonra o, MDB dövlətlərində də, beynəlxalq axtarışa verilir.

Qeyd edək ki, 1994-cü ilin 3 iyulunda da Bakı metrosunun "28 May" və "Gənclik" stansiyalarının arasında qatarda partlayış törədilib. Bu hadisədə 13 nəfər həlak olub, 42 nəfər yaralanıb. Azərbaycanın hüquq-mühafizə orqanları bu hadisəni də Ermənistanın xüsusi xidmət orqanlarının təşkil etdiyini müəyyənləşdirib.

***Yeganə BAYRAMOVA***

# Söz azadlığının "liderləri"

## Monopolist yanaşma hökm sürürdü...

Fikir və söz azadlığının bir çox hallarda xarici dairələrin əlində təzyiq vasitəsinə çevrildiyinin şahidiyiq. Hətta bəzi Qərb ölkələrində söz azadlığı böhranı dərinləşməkdədir. Xarici dairələrin hər zaman Qərbi söz azadlığının lideri kimi qələmə verdikləri məlumdur. Amma məsələ burasındadır ki, bu gün söz azadlığını hədəfə alan əsas ölkələrdən biri də məhz Qərbin özüdür.

Məlumdur ki, Azərbaycanda fəaliyyəti zamanı qanunsuzluğa yol verən bəzi media sturukturlarının işinin dayandırılması bir çox halda ölkəmizə qarşı beynəlxalq təzyiqlərə səbəb olurdu. Son günlər isə ABŞ-da məlum mətbuat orqanlarının bağlanması baş versə də, buna qarşı beynəlxalq səviyyədə "dözümlülük" görürük. Təbii ki, bütün bunlar açıq-aydın ikili standartların olduğunu bir daha nümayiş etdirir.

### Onlara "gözün üstündə qaşın var" deyilməyib!

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin sözlərinə görə, təəssüf ki, insan haqları, demokratiya, sərbəst toplaşmaq, mətbuat, fikir və söz azadlığı uzun illər boyu Qərbin bəzi geosiyasi mərkəzlərinin əlində digər ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə olunub: "Bu taktikanın qurbanı olan ölkələr Qərbin siyasətinə və layihəsinə baş əyməyiblər, onların hərbi, siyasi, iqtisadi layihələrində iştirak etməyiblər, daha çox müstəqilliyə, yaxud da başqa qütblərə meyilli olduqlarına görə bu cür qərəzli münasibətin qurbanı və hədəfləri olublar. Qərbin məlum geosiyasi mərkəzləri, o cümlədən Avropa Birliyi, ABŞ və digərləri insan hüquq və azadlıqları, seçki azadlığı, həmçinin media azadlığı zamanı hər zaman ikili standartlar nümayiş etdiriblər. Onlara yaxın olan ölkələrdə qeyd etdiyimiz insan hüquqları və media azadlığının hansı formada pozulmasından asılı olmayaraq, onlara "gözün üstündə qaşın var" deyilməyib və insanın fundamental hüquqlarından biri sayılan media, söz azadlığı onların əlində ayrı-seçkiliklə istifadə edilən bir alət olub. Özlərinə yaxın olmayan ölkələrdə media azadlığının pozulmasına hər zaman aqressiv yanaşıb, ildə bir dəfə hesabat hazırlayıblar. Bu hesabatları isə həmin ölkələrdə adətən hakimiyyətlərlə əks düşərgələrdə olan qüvvələrdən alıblar, hakimiyyətə qarşı işləyən bütün qüvvələr həmin ölkələrin müttəfiqləri olublar".

### Media azadlığına yanaşmada monopolizm göstəricisi...

A.Quliyevin fikrincə, başqa bir problem bəlli geosiyasi mərkəzlərin media azadlığını qiymətləndirmək və monitorinq aparmaq üçün monopolist hüquqa malik olmasıdır: "Yəni, dünya ölkələrində media, toplaşmaq və söz azadlığını monitorinq etmək sanki Amerikanın, Avropa Birliyinə daxil olan ölkələrin səlahiyyətidir, yaxud da bu mərkəzlərin eqidası altında yaradılmış hansısa beynəlxalq təşkilatların-"Human Rights Watch"un, Sərhədsiz reportyorların, "Freedom House"un monopoliyasında olan məsələ imiş. Bu, dünyada media azadlığına yanaşmalarda monopolizmin parlaq göstəricisi idi".




### Keçmiş dövrlərdən qalan ziyanlı "miras"

A.Quliyev qeyd edib ki, bu gün Amerikada media azadlğının pozulması, media orqanlarının qərəzli prinsiplər çərçivəsində fəaliyyətinin dayandırılmasına dünya ölkələrinin susması məhz keçmiş dövrdən qalan ziyanlı bir "miras"dır. Dünya ölkələri ayılmalı və bilməlidir ki, onun daxilində media azadlığının pozulması ilə bağlı monitorinq aparılması ABŞ və Avropa Birliyinin inhisarında olan məsələ kimi nəzərdən keçirilə bilməz. Bütün Asiya ölkələrinin, Qoşulmama Hərakatına daxil olan ölkələrin, İslam Həmrəyliyi Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin də Amerikada media azadlığı ilə bağlı baş verən neqativ hallara qiymət vermək, monitorinq aparmaq və onu tənqid etmək səlahiyyəti var. Yəqin ki, yeni mərhələdə Asiya ölkələri də Amerika, Avropa Birliyi ölkələri kimi özünü qabaqcıl hesab edən bölgələrdə media azadlığının pozulmasına qarşı özlərinin üsyankar mövqeyini və münasibət bildirmək hüququnu açıq şəkildə ortaya qoyacaqlar".

### Özlərini gülünc vəziyyətə qoydular...

Media eksperti, professor Qulu Məhərrəmlinin sözlərinə görə, müasir mediada ikili standartların sərgilənməsi özünü o qədər "çılpaq" şəkildə göstərir ki, bu məsələnin üstündən keçmək olmur: "Məsələn, Amerikada baş verən proseslər, təbii ki, ilk növbədə demokratiyanın əsas atributu olan ifadə azadlığına basqı kimi qiymətləndirilməlidir. Amma bu durum Amerika cəmiyyəti üçün o qədər də önəm daşımır. Çünki "Amerikanın Səsi" Konqres tərəfindən maliyyələşdirilirdi və Amerikanın daxili ilə bağlı yayım aparmırdı, daha çox ölkənin xarici siyasətini Avropada, Asiyada, Yaxın Şərqdə təbliğ etməyə yönəlik fəaliyyət göstərirdi. Hazırda Avropanın özündə ikili proseslər, parçalanma gedir, mərkəzdən qaçma meyilləri güclənib. Belə bir şəraitdə önəmli olan budur ki, Azərbaycan kimi ölkələr öz müstəqilliyini, suverenliyini qoruyub saxlamaq üçün addımlar atır. Bu baxımdan ölkəmizdə müstəqillik və dövlət suverenlik ili elan olunmasının müəyyən rəmzi mənası daha güclü şəkildə üzə çıxır. Ona görə də bu dəyərlərdən danışanda həddindən artıq ehtiyatlı olmalıyıq. Çünki bir vaxtlar demokratiyanı əsas bayraq kimi götürüb bəzi ölkələrdə çevriliş edən, insan haqları pərdəsi altında həmin ölkələrin daxili siysətinə müdaxilə etməyə çalışan Qərb dövlətləri hazırda özlərini dünya ictimaiyyəti qarşısında gülünc vəziyyətə qoydular. Bu baxımdan indiki proseslərdə önəmli olan Azərbaycanın müstəqilliyi, onun dövlət suverenliyinin qorunub saxlanmasıdır".

***Səlim***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Azercell-dən Novruz Bayramına xüsusi təklif!

## Lider mobil operatordan Honor cihazlarını əldə edən müştərilərə internet və danışıq yarı qiymətə!

Azercell Novruz Bayramı münasibətilə xüsusi kampaniyaya start verir. Belə ki, "Azercell Exclusive" və rəsmi diler mağazalarından Honor smartfonu və ya planşeti əldə edən bütün istifadəçilər üç ay ərzində "SuperSən 6GB" və "SuperSən 10GB" tariflərindən 50% endirimlə yararlanmaq imkanı əldə edəcəklər.




31.03.2025 tarixinədək qüvvədə olacaq kampaniya qiyməti 179 AZN-dən başlayan Honor cihazlarına şamil olunacaq.

Kampaniya haqqında ətraflı məlumat üçün https://www.azercell.com/az/ daxil ola bilərsiniz.

Azercell Azərbaycan xalqını Novruz Bayramı münasibətilə təbrik edir!

# İnklüziv təşəbbüsləri dəstəkləyən "Nar" "DanceAbility" iştirakçıları ilə görüşüb

Ölkənin ən sərfəli mobil xidmətlərini təqdim edən "Nar" inklüziv cəmiyyətin inkişafına dəstək məqsədilə "Bütün Vücudlar Danışır" sosial-mədəni layihəsinin iştirakçıları ilə görüş keçirib. Mobil operatorun əməkdaşları layihənin iştirakçıları ilə görüş keçirib və onların rəqslərinə qoşularaq unikal inklüziv təcrübəni birlikdə paylaşıblar.

Görüş zamanı "Nar"ın baş icraçı direktoru Qunnar Panke inklüzivliyin cəmiyyətin inkişafındakı rolunu vurğulayıb: "Hər kəsin cəmiyyətin fəal üzvü olması üçün bərabər imkanlara sahib olması vacibdir. "Bütün Vücudlar Danışır" layihəsi fiziki imkanlarından asılı olmayaraq, hər kəsin özünü ifadə etməsinə və birlikdə dəyər yaratmasına imkan verir. "Nar" olaraq, inklüziv cəmiyyətin qurulmasına töhfə vermək bizim üçün sosial məsuliyyətin vacib hissəsidir. Biz dəstəklədiyimiz təşəbbüslərin real dəyişiklik yaratmasına önəm veririk və bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik".



"Nar" sosial məsuliyyət strategiyasının əsas istiqamətlərindən biri kimi inklüzivliyi və bu yöndə cəmiyyətdə bərabər imkanların yaradılmasını dəstəkləyir. Mobil operator "Bütün Vücudlar Danışır" layihəsinə verdiyi töhfə ilə fiziki məhdudiyyətlərə dair stereotiplərin aradan qaldırılmasına və inklüziv cəmiyyətin qurulmasına dəstək olmağa davam edir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4892
Sifariş: 623
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova